# AZƏRBAYCAN RESPUBLİKASININ MİQRASİYA MƏCƏLLƏSİ

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti ilə bağlı normaları müəyyənləşdirir.

## *I BÖLMƏ*

## *ÜMUMİ MÜDDƏALAR*

## *FƏSİL 1*

## AZƏRBAYCAN RESPUBLİKASININ MİQRASİYA QANUNVERİCİLİYİ

M a d d ə 1. **Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyi**

Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Məcəllədən, Azərbaycan Respublikasının qanunlarından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən və onlara uyğun olaraq qəbul edilmiş digər normativ hüquqi aktlardan ibarətdir.

M a d d ə 2. **Azərbaycan Respublikası miqrasiya qanunvericiliyinin prinsipləri**

Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyi insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq, qanun qarşısında bərabərlik və ədalətlilik, Azərbaycan Respublikası miqrasiya qanunvericiliyinin hamılıqla tanınan beynəlxalq hüquq normalarına uyğunluğunun təmin edilməsi, miqrasiya proseslərinin tənzimlənməsində innovativ metodların tətbiqi və şəffaflığın təmin edilməsi prinsiplərinə əsaslanır.

M a d d ə 3. **Əsas anlayışlar**

3.0. Bu Məcəllədə aşağıdakı əsas anlayışlardan istifadə olunur:

3.0.1. **əcnəbi** – Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxs;

3.0.2. **vətəndaşlığı olmayan şəxs** – heç bir dövlət tərəfindən onun qanununa əsasən vətəndaş hesab edilməyən şəxs;

3.0.3. **yetkinlik yaşına çatmayan şəxs** – 18 yaşı tamam olmayan şəxs;

3.0.4. **pasport** – şəxsə vətəndaşı olduğu ölkə tərəfindən verilən, ona ölkədən getmək və ölkəyə gəlmək hüququ verən, habelə onun şəxsiyyətini və vətəndaşlığını təsdiq edən sənəd;

3.0.5. **şəxsiyyət vəsiqəsi** – Azərbaycan Respublikasının ərazisində şəxsiyyəti təsdiq edən sənəd;

3.0.6. **Azərbaycan Respublikasında müvəqqəti olan** – Azərbaycan Respublikasında yaşamaq üçün icazəsi olmayan, turizm, şəxsi iş, xidməti ezamiyyət və sair bu kimi müvəqqəti xarakter daşıyan hallarla əlaqədar Azərbaycan Respublikasına qanuni əsaslarla gəlmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxs;

3.0.7. **Azərbaycan Respublikasında müvəqqəti yaşayan** – bu Məcəllə ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almış əcnəbi və ya vətəndaşlığı olmayan şəxs;

3.0.8. **Azərbaycan Respublikasında daimi yaşayan** – bu Məcəllə ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış əcnəbi və ya vətəndaşlığı olmayan şəxs;

3.0.9. **əmək miqrasiyası** – fiziki şəxsin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya etməklə yaşayış yerini dəyişməsi;

3.0.10. **əməkçi miqrant** – haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya edən fiziki şəxs;

3.0.11. **əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ailə üzvləri** – əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin arvadı (əri), 18 yaşına çatmamış uşaqları, 18 yaşına çatmış əmək qabiliyyəti olmayan övladları və himayəsində olan valideynləri;

3.0.12. **yaxın qohum** – ata, ana, ər (arvad), övlad, qardaş, bacı və onların övladları, baba, nənə, babanın (nənənin) atası və anası, nəvə, qayınata, qayınana, qayın, baldız;

3.0.13. **iş icazəsi** – Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə bu Məcəllə ilə müəyyən edilmiş qaydada verilən icazə;

3.0.14. **yaşayış yeri** – mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə və ya kirayə müqaviləsi üzrə, yaxud Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əsaslarla daimi və ya daha çox yaşadığı ev, mənzil, xidməti yaşayış sahəsi, mehmanxana, yataqxana, qoca və əlil evləri və digər bu kimi yaşayış yerləri;

3.0.15. **olduğu yer** – şəxsin yaşayış yeri sayılmayan müvəqqəti yaşadığı mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə ictimai yerlər, habelə mənzil, digər yaşayış sahəsi (özünün, qohumunun, tanışının və s.);

3.0.16. **viza** – əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dövlət sərhədinin buraxılış məntəqələrindən müəyyən olunmuş qaydada keçməklə Azərbaycan Respublikasına gəlməsinə və Azərbaycan Respublikasından getməsinə, vizada göstərilmiş müddət ərzində ölkədə müvəqqəti olmasına hüquq verən rəsmi sənəd;

3.0.17. **sərhədkeçmə sənədi** – xarici pasport, vətəndaşlığı olmayan şəxslərə yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün verilən sənəd, dənizçi kitabçası (vəsiqəsi), qaçqınlara verilmiş yol sənədi, vətənə qayıdış şəhadətnaməsi, *Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən səyahət sənədi,* beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədlər.[1]

M a d d ə 4. **Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin tətbiq dairəsi**

4.1. Bu Məcəllə Azərbaycan Respublikası vətəndaşlarının ölkədən getməsi, ölkəyə gəlməsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi, Azərbaycan Respublikasında müvəqqəti olması, onlara müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, onların qeydiyyata alınması, miqrasiya prosesi iştirakçılarının hüquq və vəzifələri, əmək miqrasiyası, habelə miqrasiyaya dövlət nəzarəti və qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində münasibətləri tənzimləyir.

4.2. Bu Məcəllə ilə müəyyən edilən qaydalar daxili əmək miqrasiyasına şamil edilmir.

4.3. Azərbaycan Respublikasında qaçqın statusunun verilməsi, qaçqın statusunun itirilməsi, qaçqın statusundan məhrum etmə, habelə qaçqın statusu almış şəxslərə verilən sənədlər və həmin şəxslərin hüquqi vəziyyətinin əsasları müvafiq qanunla tənzimlənir.

4.4. Səfərbərlik zamanı Azərbaycan Respublikasına gəlmə və Azərbaycan Respublikasından getmənin xüsusi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

M a d d ə 5. **Miqrasiya proseslərinin iştirakçıları**

5.0. Miqrasiya proseslərinin iştirakçıları aşağıdakılardır:

5.0.1. miqrasiya proseslərinin idarə olunmasında və tənzimlənməsində iştirak edən, habelə həmin proseslərə dövlət nəzarətini həyata keçirən dövlət orqanları;

5.0.2. xarici ölkəyə gedən, orada müvəqqəti və ya daimi yaşayan, habelə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları;

5.0.3. əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasına dəvət edən və onların Azərbaycan Respublikasında qeydiyyata alınması prosesində iştirak edən şəxslər;

5.0.4. Azərbaycan Respublikasına viza əsasında və ya viza tələb olunmayan qaydada gələn, burada müvəqqəti olan, müvəqqəti olma müddəti uzadılan, müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilən, Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

5.0.5. əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasına dəvət etmiş, onların ölkədə müvəqqəti olması, müvəqqəti olma müddətinin uzadılması, qeydiyyata alınması və əmək miqrasiyası, onlara müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi proseslərində iştirak edən təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlar, xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;

5.0.6. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlməsində vasitəçilik edən Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxslər.

## *FƏSİL* 2

## ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN MİQRASİYA UÇOTU

### M a d d ə 6. **Miqrasiya uçotunun məqsədləri**

6.1. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin miqrasiya uçotu (bundan sonra – miqrasiya uçotu) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında bu Məcəllə ilə nəzərdə tutulmuş məlumatların, habelə onların yerdəyişməsi haqqında məlumatların qeydə alınması və ümumiləşdirilməsi sahəsində fəaliyyətdir.

6.2. Miqrasiya uçotu miqrasiya proseslərinin idarə olunması formalarından biridir və Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla olan hər bir əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş sərbəst hərəkət etmək, ölkə ərazisində olma və yaşama yeri seçmək və digər hüquq və azadlıqlarının təmin olunmasına, habelə Azərbaycan Respublikasının miqrasiya sahəsində milli maraqlarının həyata keçirilməsinə və qanunsuz miqrasiyanın qarşısının alınmasına yönəlmişdir.

6.3. Miqrasiya uçotu aşağıdakı məqsədlərlə aparılır:

6.3.1. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin öz hüquq və azadlıqlarını həyata keçirməsi, habelə üzərlərinə qoyulmuş vəzifələri yerinə yetirməsi üçün lazımi şərait yaradılması;

6.3.2. miqrasiya sahəsində dövlət siyasətinin işlənməsi və həyata keçirilməsi;

6.3.3. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerdəyişməsinin nəticələrinin proqnozlaşdırılması məqsədi ilə belə yerdəyişmə haqqında tam, dəqiq və operativ məlumatın formalaşdırılması, habelə miqrasiya sahəsində statistik müşahidənin aparılması;

6.3.4. təbii fəlakət, fövqəladə vəziyyət, hərbi vəziyyət və digər bu kimi hallarda idarəetmənin təmin olunması;

6.3.5. qanunsuz miqrasiyaya və digər qanunazidd hərəkətlərə qarşı mübarizə aparmaqla ictimai asayişin və Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması;

6.3.6. Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında, habelə onların yerdəyişməsi haqqında məlumatların sistemləşdirilməsi.

M a d d ə 7. **Miqrasiya uçotunun aparılması üçün əsaslar**

7.1. Şəxsin miqrasiya uçotuna alınması üçün əsaslar aşağıdakılardır:

7.1.1. əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına girişi;

7.1.2. əcnəbinin Azərbaycan Respublikasında doğum faktının qeydə alınması;

7.1.3. Azərbaycan Respublikasının ərazisində olan şəxsin Azərbaycan Respublikası vətəndaşlığına xitam verilməsi.

7.2. Şəxsin miqrasiya uçotundan çıxarılması üçün əsaslar aşağıdakılardır:

7.2.1. əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasında vəfat etməsi;

7.2.2. Azərbaycan Respublikasında olan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölmüş və ya itkin düşmüş elan edilməsi barədə məhkəmə qərarının qanuni qüvvəyə minməsi;

7.2.3. Azərbaycan Respublikasında olan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının vətəndaşlığını əldə etməsi.

M a d d ə 8. **Miqrasiya uçotunun aparılması**

8.1. Miqrasiya uçotu aparılarkən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında aşağıdakı məlumatların toplanması, qeydə alınması, ümumiləşdirilməsi və istifadəsi həyata keçirilir:

8.1.1. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin şəxsiyyətini təsdiq edən sənədin növü və rekvizitləri (sənədin adı, seriyası, nömrəsi, verilmə tarixi və yeri, etibarlılıq müddəti, habelə mövcud olduğu təqdirdə, həmin sənəddə olan biometrik məlumatlar);

8.1.2. Azərbaycan Respublikasında olmaq və ya yaşamaq hüququnu təsdiq edən sənədin növü və rekvizitləri;

8.1.3. soyadı, adı, atasının adı (sənəddə sonuncu barədə məlumat olduğu təqdirdə);

8.1.4. doğulduğu tarix və yer;

8.1.5. cinsi;

8.1.6. vətəndaşlığı;

8.1.7. Azərbaycan Respublikasına gəlişinin məqsədi;

8.1.8. peşəsi (olduğu təqdirdə);

8.1.9. Azərbaycan Respublikasında olmasının və ya yaşamasının bəyan edilmiş müddətləri;

8.1.10. Azərbaycan Respublikasında son yaşayış yeri və ya olduğu yer üzrə qeydiyyat tarixi və onun ünvanı;

8.1.11. qanuni nümayəndələri barədə məlumat (valideynlər, övladlığa və himayəyə götürənlər, qəyyumlar);

8.1.12. ölkə hüdudlarından kənara çıxarılması barədə məlumat (tətbiq olunub ya yox, tətbiq olunubsa – kim tərəfindən və nə vaxt);

8.1.13. ölkədə olmasının arzuolunmaz hesab edilməsi barədə məlumat;

8.1.14. Azərbaycan Respublikasında cinayət məsuliyyətinə və ya inzibati məsuliyyətə cəlb edilməsi haqqında məlumat;

8.1.15. Azərbaycan Respublikasında vəfat etdiyi tarix, yaxud ölmüş və ya itkin düşmüş elan edilməsi barədə məhkəmə qərarının qanuni qüvvəyə mindiyi tarix, məhkəmənin adı və yeri.

8.2. Miqrasiya uçotu müvafiq icra hakimiyyəti orqanı tərəfindən Vahid Miqrasiya Məlumat Sistemi vasitəsi ilə aparılır.

8.3. Aidiyyəti dövlət orqanları miqrasiya uçotunun aparılması məqsədi ilə müvafiq məlumatları istifadələrində olan informasiya resursları və sistemləri vasitəsi ilə müvafiq icra hakimiyyəti orqanına ötürürlər.

8.4. Vahid Miqrasiya Məlumat Sisteminin məlumat resurslarının formalaşması və ondan istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən əsasnamə ilə müəyyən olunur.

## II BÖLMƏ

## AZƏRBAYCAN RESPUBLİKASINA GƏLMƏ VƏ AZƏRBAYCAN RESPUBLİKASINDAN GETMƏ

### *FƏSİL 3*

### AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ ÖLKƏDƏN GETMƏSİ VƏ ÖLKƏYƏ GƏLMƏSİ

M a d d ə 9. **Azərbaycan Respublikası vətəndaşlarının ölkədən getmək və ölkəyə gəlmək hüququ**

9.1. Azərbaycan Respublikasının vətəndaşı (bundan sonra - vətəndaş) dövlət sərhədinin buraxılış məntəqələrindən keçərək sərbəst surətdə ölkədən getmək və ölkəyə gəlmək hüququna malikdir.

9.2. Vətəndaş ölkədən getmək və ölkəyə gəlmək hüququndan məhrum edilə bilməz.

9.3. Vətəndaşın ölkədən getmək hüququ yalnız aşağıdakı hallarda müvəqqəti məhdudlaşdırıla bilər:

9.3.1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq tutulduqda və ya barəsində hər hansı qətimkan tədbiri seçildikdə - azad edilənədək, qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək;

9.3.2. məhkum edildikdə – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə müəyyən edilmiş əsas cəzasını çəkib qurtaranadək və ya bu Məcəllənin 9.3.4-cü maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, cəzadan azad edilənədək;

9.3.3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edildikdə – tibbi xarakterli məcburi tədbirlərin tətbiqi ləğv edilənədək;

9.3.4. üzərinə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan vəzifələr qoyulmaqla şərti məhkum edildikdə və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edildikdə – müvafiq olaraq sınaq müddəti və ya cəzanın çəkilməmiş hissəsi başa çatanadək və ya şərti məhkumetmə, yaxud üzərinə qoyulmuş vəzifələr vaxtından əvvəl tamamilə ləğv edilənədək;

*9.3.4-1. hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər barəsində cəzanın çəkilməsi təxirə salındıqda - məhkəmə məhkum edilmiş şəxsi cəzanın çəkilməmiş hissəsindən azad edənədək və ya məhkum edilmiş şəxs əsas cəzasının qalan hissəsini çəkib qurtaranadək;*[2]

9.3.5. müddətli həqiqi hərbi xidmətə çağırıldıqda – müddətli həqiqi hərbi xidmət keçənədək və ya qanuna uyğun olaraq ondan azad edilənədək;

9.3.6. *məhkəmə qərarları, əmrləri və vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları* əsasında verilmiş icra sənədinin könüllü icra üçün müəyyən olunmuş vaxtda üzrsüz səbəbdən icra edilməməsinə görə vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda – məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək;[3]

*9.3.6-1. vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, hesablanmış vergilər üzrə borcları və faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını dövlət büdcəsinə ödəməməsinə görə vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda - məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək;*[4]

9.3.7. beynəlxalq tibbi sanitariya qaydalarına və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq profilaktik peyvəndlər tələb olunan ölkələrə gediş-gəliş zamanı - profilaktik peyvəndlər edilənədək.

9.4. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrdə qulluq edən hərbi qulluqçular (hərbi attaşelər, hərbi nümayəndələr və onların köməkçiləri istisna olmaqla), habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda beynəlxalq hərbi təlimlərə,

antiterror, xilasetmə və xidməti zərurətlə bağlı digər tədbir və ya əməliyyatlara cəlb olunan müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçular müvafiq icra hakimiyyəti orqanlarının rəsmiləşdirilmiş icazəsi olduqda Azərbaycan Respublikasından gedə bilərlər.

9.5. Dövlət sirri ilə işləməyə buraxılmış şəxslərin tanış olmağa buraxıldığı məlumatın məxfilik müddəti bitənədək, lakin 5 ildən çox olmamaq şərti ilə, xarici ölkəyə daimi yaşamağa getmək hüququ müvəqqəti məhdudlaşdırıla bilər.

9.6. Ölkədən getmək və ölkəyə gəlmək hüququ məhdudlaşdırılan vətəndaşlar barədə məlumatlar "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahılarına daxil edilməli və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusu dəyişdirilməlidir.

9.7. Hər hansı bir ölkədə fövqəladə vəziyyət və ya insan həyatı, sağlamlığı və azadlığı üçün təhlükə yaranarsa, müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının əhalisini dərhal xəbərdar etməklə, vətəndaşlara həmin ölkəyə getməkdən müvəqqəti çəkinməyi tövsiyə edir.

*9.8. Hərbi vəziyyət dövründə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən vətəndaşların ölkədən getməsi və ölkəyə gəlməsi üçün xüsusi qaydalar tətbiq edilə bilər.*[5]

M a d d ə 10. **Vətəndaşın ölkədən getmək və ölkəyə gəlmək hüququnun həyata keçirilməsi**

10.1. Vətəndaşın ölkədən getmək və ölkəyə gəlmək hüququ Azərbaycan Respublikası vətəndaşının pasportu əsasında həyata keçirilir. Pasportun verilməsi qaydası müvafiq qanunla tənzimlənir.

10.2. Azərbaycan Respublikasında qeydiyyatda olan və dənizçilik məqsədi ilə istifadə edilən gəmilərdə hər hansı dənizçi vəzifəsində işləyən vətəndaşın ölkədən getmək və ölkəyə gəlmək hüququ dənizçinin şəxsiyyət sənədi əsasında həyata keçirilir. Xaricdə işlədiyi gəmiyə çatmaq üçün fərdi qaydada ölkədən gedən vətəndaş dənizçinin şəxsiyyət vəsiqəsi ilə birlikdə həmin gəmi heyətinin tərkibində olmasını təsdiq edən sənədi (tərtib olunmuş gəmi heyətinin siyahısından çıxarış) sərhəd nəzarətindən keçərkən təqdim etməlidir. Dənizçinin şəxsiyyət sənədinin verilməsi qaydası müvafiq qanunla tənzimlənir.

10.3. Xarici ölkədə pasportunu itirmiş, pasportu oğurlanmış və ya yararsız hala düşmüş, pasportunun etibarlılıq müddəti bitmiş Azərbaycan Respublikası vətəndaşının və onunla birgə Azərbaycan Respublikasına qayıdan 18 yaşına çatmayan və ya xarici dövlətdə 18 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşı olan övladının ölkəyə qayıtmaq hüququ Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi əsasında həyata keçirilir. Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası müvafiq qanunla tənzimlənir.

M a d d ə 11. **Yetkinlik yaşına çatmayan vətəndaşın ölkədən getməsi qaydası**

11.1. Bu Məcəllənin 11.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, yetkinlik yaşına çatmayan vətəndaş ölkədən valideynləri, övladlığa götürəni, himayəçisi və ya qəyyumu ilə gedə bilər.

11.2. Yetkinlik yaşına çatmayan vətəndaş ölkədən valideynlərinin biri ilə getdikdə digər valideynin notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur. Yetkinlik yaşına çatmayan vətəndaş ölkədən tək getdikdə valideynlərinin, valideyn himayəsindən məhrum olduqda isə onu övladlığa götürən şəxsin, himayəçisinin və ya qəyyumunun notariat qaydasında təsdiq edilmiş razılığı tələb olunur. Həmin şəxslərdən birinin razılığı olmadıqda, yetkinlik yaşına çatmayan vətəndaşın ölkədən getməsi məsələsi məhkəmənin qərarı əsasında həll edilir.

11.3. Yetkinlik yaşına çatmayan vətəndaşın valideynlərindən birinin ölüm haqqında şəhadətnaməsi, ölmüş və ya itkin düşmüş elan edilməsi, valideynlik hüququndan məhrum edilməsi barədə məhkəmənin qərarı və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş doğum haqqında akt qeydində ata barədə məlumatın ananın göstərişi üzrə yazılması haqqında arayış olduqda, digər valideynin razılığı tələb olunmur. Qeyd olunan sənədlərlə birgə digər valideynin notariat qaydasında təsdiq edilmiş razılığını təqdim edən yetkinlik yaşına çatmayan vətəndaş Azərbaycan Respublikasından gedə bilər.

11.4. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülmüş Azərbaycan Respublikasının vətəndaşı olan uşaq yalnız onun övladlığa götürülməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və övladlığa götürmə haqqında şəhadətnamə təqdim edilməklə qanunla nəzərdə tutulmuş qaydada ölkədən gedə bilər.

11.5. Azərbaycan Respublikasından gedən yetkinlik yaşına çatmayan vətəndaşın həyat və sağlamlığına, ölkə hüdudlarından kənarda onun hüquq və qanuni maraqlarının qorunmasına görə məsuliyyət həmin şəxsin valideynlərinin, onu övladlığa götürən şəxslərin, himayəçi və ya qəyyumlarının üzərinə düşür.

11.6. Yetkinlik yaşına çatmayan vətəndaşlar ölkədən qrup halında valideynlərinin, onları övladlığa götürən şəxslərin, himayəçi və ya qəyyumlarının müşayiəti olmadan getdikdə, qanuni nümayəndənin vəzifələrini həmin qrupun rəhbərləri yerinə yetirirlər.

M a d d ə 12. **Fəaliyyət qabiliyyəti olmayan vətəndaşın ölkədən getməsi qaydası**

Fəaliyyət qabiliyyətinin olmaması məhkəmə tərəfindən təsdiq edilmiş vətəndaş ölkədən valideynlərinin, onu övladlığa götürən şəxslərin, himayəçi və ya qəyyumlarının notariat qaydasında təsdiq edilmiş vəsatəti əsasında, yetkinlik yaşına çatmış digər şəxsin müşayiəti ilə gedə bilər.

M a d d ə 13. **Xarici ölkədə müvəqqəti və ya daimi yaşamaq üçün gedən vətəndaşların konsulluqlarda uçotu**

13.1. Xarici ölkəyə müvəqqəti və ya daimi yaşamaq üçün gedən vətəndaşlar Azərbaycan Respublikasının xaricdəki konsulluğunda "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə uçota alınırlar. Azərbaycan Respublikası konsulluğunun olmadığı xarici ölkələrdə (yerlərdə) yaşayan vətəndaşlar yaşayış yeri barədə məlumatı elektron qaydada müvafiq icra hakimiyyəti orqanına verə bilərlər.

13.2. Vətəndaşlar xarici ölkədə yaşayış yeri üzrə qeydiyyatdan çıxaraq Azərbaycan Respublikasına qayıtdıqda, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə Azərbaycan Respublikasının xaricdəki konsulluğunda uçotdan çıxarılırlar.

M a d d ə 14. **Azərbaycan Respublikasının ərazisindən kənarda yaşayan vətəndaşların hüquqlarının Azərbaycan dövləti tərəfindən müdafiəsi**

Azərbaycan Respublikasının müvafiq dövlət orqanları, diplomatik nümayəndəlikləri və konsulluqları, habelə onların vəzifəli şəxsləri Azərbaycan Respublikasının ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, müvafiq xarici dövlətin qanunvericiliyinə, habelə beynəlxalq adətlərə uyğun olaraq onlara verilmiş bütün hüquqlardan tam həcmdə istifadə edə bilmələri üçün tədbirlər görməyə, onların qanunla qorunan hüquq və mənafelərini qanunvericiliklə müəyyən edilmiş qaydada müdafiə etməyə, Azərbaycan Respublikası vətəndaşlarının pozulmuş hüquqlarının bərpası üçün tədbirlər görməyə borcludurlar.

## *FƏSİL 4*

## ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN AZƏRBAYCAN RESPUBLİKASINA GƏLMƏSİ, AZƏRBAYCAN RESPUBLİKASINDAN GETMƏSİ VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA MÜVƏQQƏTİ OLMASI

M a d d ə 15. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi**

15.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət sərhədinin buraxılış məntəqələrindən keçmək şərti ilə, pasportları və ya digər sərhədkeçmə sənədləri əsasında Azərbaycan Respublikasına gələ və Azərbaycan Respublikasından gedə bilərlər.

15.2. Azərbaycan Respublikasına gəlmək üçün viza tələb olunduğu hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bu Məcəllə ilə müəyyən olunmuş qaydada viza almalıdırlar.

15.3. Xarici dövlətlərlə müvafiq beynəlxalq müqavilələr bağlanmış olduğu hallarda, *habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda* əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasına vizasız qaydada gələ bilərlər.[6]

15.4. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər pasportları və ya digər sərhədkeçmə sənədləri və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələri əsasında Azərbaycan Respublikasından gedə və viza almadan Azərbaycan Respublikasına qayıda bilərlər.

15.5. Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onlara Azərbaycan Respublikasının hüdudlarından kənara getmək üçün verilən "Yol sənədi" əsasında Azərbaycan Respublikasından gedə və viza almadan Azərbaycan Respublikasına gələ bilərlər.

*15.6. Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılan və sərhədkeçmə sənədləri olmayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş hallarda, habelə həmin şəxslər üçün mənşə ölkələrindən sərhədkeçmə sənədləri əldə etmək mümkün olmadığı hallarda verilən səyahət sənədi onların ölkə hüdudlarından kənara çıxması üçün əsasdır.*[7]

*15.7. Hərbi vəziyyət dövründə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi üçün xüsusi qaydalar tətbiq edilə bilər.*[8]

M a d d ə 16. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlişi ilə bağlı qadağalar və məhdudiyyətlər**

16.1. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasına gəlmək aşağıdakı hallarda qadağan edilir:

16.1.1. milli təhlükəsizlik və ya ictimai asayişin mühafizəsi, yaxud Azərbaycan Respublikası vətəndaşlarının və digər şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması bunu tələb etdikdə;

16.1.2. şəxsin sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə cinayətləri törətməsi və ya transmilli mütəşəkkil cinayətkar dəstənin üzvü olması barədə məlumat olduqda;

16.1.3. şəxs Azərbaycan Respublikasının vətəndaşlarına və ya Azərbaycan Respublikasının maraqlarına (mənafelərinə) qarşı cinayət törətdiyinə görə məhkum olunduqda, əgər məhkumluğu qanunla müəyyən edilmiş qaydada ödənilməmişdirsə və ya götürülməmişdirsə;

16.1.4. şəxs əvvəllər Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıldıqda, əgər ölkəyə girişinə qoyulmuş məhdudiyyət müddəti bitməmişdirsə;

16.1.5. şəxsin Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə;

16.1.6. şəxs əvvəllər Azərbaycan Respublikasında olarkən ölkəyə gəlişinin bəyan edilmiş məqsədlərini pozduqda;

16.1.7. şəxs Azərbaycan Respublikasına gəlməsi haqqında vəsatət qaldırarkən, özü və ya səfərinin məqsədi haqqında yalan məlumat verdikdə;

*16.1.8. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarını pozduğuna görə barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq edilmədən inzibati cərimə növündə inzibati tənbeh tətbiq edilmiş şəxs cəriməni (hesablanmış dəbbə pulu daxil olmaqla) ödəmədikdə;*[9]

16.2. Bu Məcəllənin *16.1.6-cı və 16.1.7-ci* maddələrində nəzərdə tutulmuş hallarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlişinə 5 il müddətinə qadağa qoyulur. [10]

16.3. Bu Məcəllənin 16.1-ci maddəsində nəzərdə tutulmuş hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar müəyyən olunmuş qaydada "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahılarına daxil edilməli və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusu dəyişdirilməlidir.

*16.4. Bu Məcəllənin 16.1.8-ci maddəsində nəzərdə tutulmuş şəxslər cəriməni (hesablanmış dəbbə pulu daxil olmaqla) ödədikdə onların Azərbaycan Respublikasına gəlməsi ilə bağlı qadağa dərhal götürülür.*[11]

M a d d ə 17. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasından getməsinin müvəqqəti məhdudlaşdırılması**

17.1. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasından getməsi aşağıdakı hallarda müvəqqəti məhdudlaşdırıla bilər:

17.1.1. onların getməsi milli təhlükəsizliyin təmin edilməsi mənafeyinə zidd olduqda – bu əsas aradan qalxanadək;

17.1.2. onlar Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq tutulduqda və ya barələrində hər hansı qətimkan tədbiri seçildikdə – azad edilənədək, qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək;

17.1.3. onlar məhkum edildikdə – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə müəyyən edilmiş əsas cəzalarını çəkib qurtaranadək və ya bu Məcəllənin 17.1.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla cəzadan azad edilənədək;

17.1.4. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq barələrində tibbi xarakterli məcburi tədbirlər tətbiq edildikdə – tibbi xarakterli məcburi tədbirlərin tətbiqi ləğv edilənədək;

17.1.5. onlar üzərinə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan vəzifələr qoyulmaqla şərti məhkum edildikdə və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edildikdə – müvafiq olaraq sınaq müddəti və ya cəzanın çəkilməmiş hissəsi başa çatanadək və ya şərti məhkumetmə, yaxud üzərinə qoyulmuş vəzifələr vaxtından əvvəl tamamilə ləğv edilənədək;

*17.1.5-1. hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər barəsində cəzanın çəkilməsi təxirə salındıqda - məhkəmə məhkum edilmiş şəxsi cəzanın çəkilməmiş hissəsindən azad edənədək və ya məhkum edilmiş şəxs əsas cəzasının qalan hissəsini çəkib qurtaranadək;*[12]

17.1.6. *məhkəmə qərarları, əmrləri və vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları* əsasında verilmiş icra sənədinin könüllü icra üçün müəyyən olunmuş vaxtda üzrsüz səbəbdən icra edilməməsinə görə onların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda – məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək;[13]

*17.1.6-1. vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, hesablanmış vergilər üzrə borcları və faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını dövlət büdcəsinə ödəməməsinə görə onların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda - məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək;*[14]

17.1.7. onlar inzibati xəta törətdikdə – barələrində ~~qanuni qüvvəyə minmiş~~ inzibati tənbeh tədbirləri icra edilənədək.[15]

17.2. Qanunvericilikdə nəzərdə tutulmuş qaydada profilaktik peyvəndlərin aparılmaması Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin beynəlxalq tibbi sanitariya qaydalarına və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, profilaktik peyvəndlər tələb olunan ölkələrə gediş-gəlişinin məhdudlaşdırılması ilə nəticələnir.

17.3. Bu Məcəllənin 17.1-ci və 17.2-ci maddələrində nəzərdə tutulmuş hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar müəyyən olunmuş qaydada "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahılarına daxil edilməli və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusu dəyişdirilməlidir.

Maddə 18. **Azərbaycan Respublikasına pasportsuz və ya vizasız gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər**

18.1. Bu Məcəllənin tələblərini pozaraq pasportsuz, vizasız və ya etibarlı olmayan pasport və digər sənədlərlə Azərbaycan Respublikasının dövlət sərhədini keçməyə cəhd göstərən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisinə buraxılmadan, gəldikləri ölkəyə qaytarılırlar.

18.2. Saxta və ya başqasına məxsus sənədlərlə dövlət sərhədini keçməyə cəhd göstərən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunla müəyyən olunmuş qaydada məsuliyyətə cəlb edilirlər.

Maddə 19. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi**

19.1. Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin hər hansı bir dövlətdən Azərbaycan Respublikasının ərazisinə girişi və Azərbaycan Respublikasının ərazisində müəyyən olunmuş marşrut üzrə hərəkət edərək üçüncü ölkəyə çıxışı həmin şəxsin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi hesab olunur.

19.2. Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçən əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə bu Məcəllənin 34–37-ci maddələrində nəzərdə tutulmuş qaydada tranzit vizası verilir.

19.3. Aşağıdakı hallarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin tranzit keçidi üçün tranzit vizası tələb olunmur:

19.3.1. əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının dövlət sərhədini keçməyə imkan verən digər vizalar verilmiş olduqda;

19.3.2. hava nəqliyyatı sərnişinləri təyyarə dəyişmədən Azərbaycan Respublikasının ərazisindən tranzitlə uçduqda;

19.3.3. əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hava limanında təyyarə dəyişməklə təyinat ölkəsinə getdikdə – bir şərtlə ki, sərnişinlərin təyinat ölkəsinə daxil olmaq hüququnu təsdiq edən sənədləri, təyyarə dəyişmək üçün endikləri hava limanından yola düşmə vaxtını təsdiq edən təyyarə biletləri olsun və Azərbaycan Respublikasının ərazisində qalma müddəti 24 saatdan artıq olmasın. Bu zaman sərnişinlər hava limanı ərazisində xüsusi olaraq ayrılmış ərazinin hüdudlarından kənara çıxa bilməzlər;

19.3.4. Azərbaycan Respublikası ilə vizasız gediş-gəliş haqqında müqaviləsi olan dövlətin vətəndaşları tranzitlə keçdikdə.

19.4. Tranzit keçid zamanı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vizada göstərilən müddətdən artıq Azərbaycan Respublikasının ərazisində məcburi dayanması aşağıdakı hallarda mümkündür:

19.4.1. nəqliyyatın hərəkətinə maneə olan təbii fəlakət baş verdikdə;

19.4.2. avtonəqliyyat vasitəsinin (onun hissələrinin) sıradan çıxması, yaxud yol-nəqliyyat hadisəsi nəticəsində təmirə ehtiyac yarandıqda (müvafiq sənəd təqdim edildikdə);

19.4.3. Azərbaycan Respublikasının ərazisindən keçən şəxslər xəstələndikdə (bu halda keçidin davam etdirilməsinin xəstənin səhhəti üçün təhlükə törətdiyinə dair həkimin rəyi olmalıdır);

19.5. Bu Məcəllənin 19.4.3-cü maddəsində nəzərdə tutulmuş halda xəstə şəxslə birlikdə onun yaxın qohumları olduqda, məcburi dayanma onlara da şamil edilir.

19.6. Tranzit keçid zamanı məcburi dayanma baş verdikdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti bu Məcəllənin 41–43-cü maddələrinə uyğun olaraq məcburi dayanmanın səbəbləri aradan qalxanadək artırılır.

19.7. Azərbaycan Respublikasının ərazisindən dəmiryol nəqliyyatı və ya avtonəqliyyat vasitəsi ilə tranzitlə keçən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sərhədboyu zonada dayanması qadağandır.

19.8. Beynəlxalq yükdaşımalarda iştirak edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisindən tranzit keçidi beynəlxalq və dövlətlərarası yükdaşımalar üçün müəyyənləşdirilmiş dövlət sərhədinin buraxılış məntəqələrindən və avtomobil yollarından həyata keçirilir.

19.9. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

19.10. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisindən tranzit keçid qaydalarına əməl etmədiklərinə görə qanunla nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb olunurlar.

Maddə 20. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olması**

20.1. Viza əsasında Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddətindən, viza tələb olunmayan qaydada Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin isə ölkədə müvəqqəti olma müddəti, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, 90 gündən artıq ola bilməz.

20.2. Bu müddət bitənədək əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti uzadılmamışdırsa, onlara müvəqqəti yaşamaq üçün icazə verilməmişdirsə, habelə onlardan müvəqqəti olma müddətinin uzadılması və ya müvəqqəti yaşama icazəsinin verilməsi üçün ərizə qəbul edilməmişdirsə, onlar Azərbaycan Respublikasının ərazisini tərk etməlidirlər.

Maddə 21. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınması**

21.1. Azərbaycan Respublikasında *15* gündən artıq müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar *(bu barədə ölkəyə daxil olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə dövlət sərhədinin buraxılış məntəqələrində Azərbaycan, rus və ingilis dillərində olan müvafiq bildiriş verilir)*.[16]

21.2. Bunun üçün əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qaldığı yerin (mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə ictimai yerlər) müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi (bundan sonra – "qəbul edən tərəf") əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan *15* gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və onun pasportunun (digər sərhədkeçmə sənədinin) surətini müvafiq icra hakimiyyəti orqanının internet *informasiya ehtiyatı,* elektron poçt vasitəsi ilə və ya şəxsən müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidir.[17]

21.3. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də olduğu yer üzrə qeydiyyata alınmaları üçün bu Məcəllənin 21.2-ci maddəsində müəyyən olunmuş qaydada müraciət edə bilərlər.

21.4. Ərizə daxil olduqdan sonra müvafiq icra hakimiyyəti orqanı dərhal əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barədə məlumatları Vahid Miqrasiya Məlumat Sisteminə daxil etməklə onları olduğu yer üzrə qeydiyyata alır və bu barədə 1 iş günü ərzində müraciət edən şəxsə məlumat verir.

21.5. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı müddətlərə qeydiyyata alınırlar:

21.5.1. viza əsasında gələnlər - vizada göstərilən qalma müddətinə;

21.5.2. viza tələb olunmayan qaydada gələnlər - 90 gün müddətinə.

21.6. BMT-nin Qaçqınlar üzrə Ali komissarının Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən himayəyə götürülmüş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin himayə müddətinə olduğu yer üzrə qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən Nümayəndəliyin məlumatları əsasında aparılır.

21.7. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması üçün dövlət rüsumu ödənilmir.

21.8. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yerdən getdikdə, qəbul edən tərəf və ya şəxs özü bu barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir və bu məlumat əsasında onlar olduğu yer üzrə qeydiyyatdan çıxarılırlar. Qeydiyyat müddəti başa çatdıqda, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qeydiyyatdan çıxarılmış hesab edilirlər.

21.9. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduğu yeri dəyişdikdə, o, bu Məcəllənin 21.2–21.5-ci maddələrində nəzərdə tutulmuş qaydada yeni olduğu yer üzrə qeydiyyata alınmalıdır. *Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs qeydiyyata alındığı mənzilin (yaşayış sahəsinin) sahibinə məxsus digər mənzildə (yaşayış sahəsində) müvəqqəti qaldıqda, onun olduğu yer üzrə yenidən qeydiyyata alınması tələb olunmur.*[18]

M a d d ə 22. **Qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər**

22.1. Xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin

əməkdaşları, inzibati-texniki xidmət heyətinə daxil olan şəxslər və onların ailə üzvləri, həmçinin Azərbaycan Respublikasına diplomatik missiya ilə və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda xüsusi missiya ilə səfər edən əcnəbilərin qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

22.2. Bununla əlaqədar onlara nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş müvafiq vəsiqə verilir.

22.3. Müvafiq icra hakimiyyəti orqanı miqrasiya uçotunun aparılması məqsədi ilə bu Məcəllənin 22.1-ci maddəsində nəzərdə tutulmuş şəxslər barədə məlumatları 10 gün müddətində müvafiq icra hakimiyyəti orqanına təqdim edir.

Maddə 23. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində olmasının arzuolunmaz hesab edilməsi**

23.1. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi, Azərbaycan Respublikasında olması və ya yaşaması Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, onun dünyəvi xarakterinə, Azərbaycan xalqının vahidliyinə, ölkənin milli təhlükəsizliyinə, ictimai asayişə və ya əhalinin sağlamlığına zərər vura biləcəyi hallarda, habelə Azərbaycan Respublikası vətəndaşlarının və digər şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması bunu tələb etdikdə, müvafiq icra hakimiyyəti orqanları tərəfindən həmin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə olması arzuolunmaz hesab edilə bilər.

23.2. Şəxsin arzuolunmaz hesab edilməsi 5 il müddətinə müəyyən edilir və müvafiq əsaslar aradan qalxmadıqda eyni müddətə uzadıla bilər. Uzadılmaların sayı məhdudlaşdırılmır.

23.3. Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla müvəqqəti olan, müvəqqəti və ya daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxs arzuolunmaz hesab edildikdə, həmin şəxs qərar qəbul edildiyi andan ölkədə olma və ya yaşama hüququnu itirir.

23.4. Şəxsin ölkədə olmasının arzuolunmaz hesab edilməsi barədə məlumat müvafiq icra hakimiyyəti orqanları tərəfindən "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edilir.

23.5. Azərbaycan Respublikasının ərazisində olan şəxslərin ölkədə olması arzuolunmaz hesab edildikdə müvafiq icra hakimiyyəti orqanları bu barədə məlumatı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması, habelə həmin şəxslər barəsində bu Məcəllənin 79-cu maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması haqqında qərar qəbul edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər.

## III BÖLMƏ

## ƏCNƏBİLƏRƏ VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRƏ AZƏRBAYCAN RESPUBLİKASINA GƏLMƏK, AZƏRBAYCAN RESPUBLİKASINDA MÜVƏQQƏTİ OLMAQ, YAŞAMAQ VƏ İŞLƏMƏK HÜQUQU VERƏN SƏNƏDLƏR VƏ ONLARIN VERİLMƏSİ QAYDALARI

### *FƏSİL 5*

### VİZALAR

M a d d ə 24. **Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən vizalar**

24.1. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən vizaların giriş və tranzit növləri vardır.

24.2. Girişlərin sayına görə giriş vizası birdəfəlik və çoxdəfəlik vizalara, tranzit vizası isə birdəfəlik və ikidəfəlik vizalara bölünür.

24.3. Giriş vizası diplomatik, xidməti və adi kateqoriyalara bölünür.

24.4. Diplomatik və xidməti kateqoriyalı giriş vizaları yalnız rəsmi səfər məqsədi ilə Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir.

24.5. Adi kateqoriyalı giriş vizaları işgüzar, elm, təhsil, əmək, turizm, mədəniyyət, idman, humanitar, müalicə və şəxsi səfər məqsədləri ilə Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir.

24.6. Giriş vizasının etibarlılıq müddəti birdəfəlik giriş-çıxış üçün 90 günədək, çoxdəfəlik giriş-çıxış üçün isə 2 ilədək müəyyən olunur.

24.7. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər vizada göstərilən qalma müddəti ərzində və məqsədlə ölkə ərazisində qala bilərlər.

24.8. Vizada göstərilən ölkədə qalma müddətindən vizanın etibarlılıq dövrü ərzində istifadə edilir. Bu müddət ərzində istifadə olunmayan viza qüvvədən düşür.

24.9. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə vizalarla bağlı bu Məcəllədə nəzərdə tutulmuş qaydalardan (müddətlərdən) fərqli qaydalar (müddətlər) müəyyən oluna bilər.

M a d d ə 25. **Rəsmi səfər məqsədi ilə verilən giriş vizası**

25.1. Rəsmi səfər vizası xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşlarına, inzibati-texniki xidmət heyətinə daxil olan şəxslərə və onların ailə üzvlərinə, həmçinin Azərbaycan Respublikasına diplomatik missiya ilə və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda xüsusi missiya ilə səfər edən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir. Bu vizalarda ölkədə qalma müddəti verilən vizanın etibarlılıq müddəti ilə müəyyən edilir.

25.2. Rəsmi səfər vizası, eyni zamanda Azərbaycan Respublikasında keçirilən rəsmi tədbirlərdə və görüşlərdə iştirak edəcək əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə də verilir və bu vizalarda ölkədə qalma müddəti 180 günədək müəyyən edilir.

25.3. Rəsmi səfər vizasının rəsmiləşdirilməsi üçün əcnəbinin və vətəndaşlığı olmayan şəxsin təmsil etdiyi ölkənin və ya beynəlxalq təşkilatın rəsmi notası və ya Azərbaycan Respublikasının müvafiq qurumlarının vəsatəti və bu Məcəllənin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

M a d d ə 26. **İşgüzar səfər məqsədi ilə verilən giriş vizası**

26.1. İşgüzar səfər vizası Azərbaycan Respublikasında işgüzar əlaqələr və ya əməkdaşlıq qurmaq üçün Azərbaycan Respublikasının dövlət orqanlarının, Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi şəxslərin və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, habelə xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin vəsatəti əsasında və ya Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti ilə məşğul olmanı təsdiq edən sənədlə gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir.

26.2. İşgüzar səfər vizasında ölkədə qalma müddəti 180 günədək müəyyən edilir.

26.3. İşgüzar səfər vizasının rəsmiləşdirilməsi üçün bu Məcəllənin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

M a d d ə 27. **Elm və ya təhsil məqsədi ilə verilən giriş vizası**

27.1. Elm və ya təhsil vizası bu sahədə Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət orqanlarının, elmi-tədqiqat institutlarının, dövlət qeydiyyatından keçmiş təhsil müəssisələrinin vəsatəti əsasında elmi fəaliyyətlə məşğul olmağa, müvafiq konfrans, seminar və digər elmi tədbirlərdə iştirak etməyə, təhsil müəssisələrinə qəbul olunaraq təhsil almağa və ya ixtisas artırmağa gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir.

27.2. Elm və ya təhsil vizasında ölkədə qalma müddəti 90 günədək müəyyən edilir.

27.3. Elm və ya təhsil vizasının rəsmiləşdirilməsi üçün şəxsin Azərbaycan Respublikasında təhsili və yaşayışı ilə bağlı xərcləri ödəyə biləcək maliyyə vəsaitinə malik olması haqqında müvafiq sənəd (Azərbaycan Respublikasında əcnəbinin və vətəndaşlığı olmayan şəxsin təhsili vətəndaşı olduğu və ya daimi qeydiyyatda yaşadığı ölkə tərəfindən maliyyələşdirilmədiyi halda) və bu Məcəllənin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

M a d d ə 28. **Əmək məqsədi ilə verilən giriş vizası**

28.1. Əmək vizası Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq niyyətində olan və bunun üçün Azərbaycan Respublikasının dövlət orqanlarının, Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi şəxslərin və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, habelə xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin işəgötürən tərəf qismində vəsatəti əsasında gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir.

28.2. Əmək vizasında ölkədə qalma müddəti 90 günədək müəyyən edilir.

28.3. Əmək vizasının rəsmiləşdirilməsi üçün bu Məcəllənin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

M a d d ə 29. **Müalicə məqsədi ilə verilən giriş vizası**

29.1. Müalicə vizası Azərbaycan Respublikasındakı tibb müəssisələrinin qəbul edən tərəf qismində vəsatəti əsasında Azərbaycan Respublikasında müayinə və müalicə olunmağa gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir.

29.2. Müalicə vizasında ölkədə qalma müddəti 90 günədək müəyyən edilir.

29.3. Müalicə vizasının rəsmiləşdirilməsi üçün dəvət edilən şəxsdə müayinə və ya müalicə olunacaq xəstəliyin olması barədə tibbi arayış və bu Məcəllənin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

M a d d ə 30. **Şəxsi səfər məqsədi ilə verilən giriş vizası**

30.1. Şəxsi səfər vizası Azərbaycan Respublikası vətəndaşının, Azərbaycan Respublikasında daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin, Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazəsi olan əməkçi miqrantın və ya təhsil alan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin (yalnız həmin əməkçi miqrantın və ya təhsil alan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin ailə üzvləri üçün) *vəsatəti* əsasında gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir. [19]

30.2. Şəxsi səfər vizasında ölkədə qalma müddəti 90 günədək müəyyən edilir.

30.3. Şəxsi səfər vizasının rəsmiləşdirilməsi üçün dəvət edən şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti, əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin səfəri ilə bağlı maliyyə xərclərinin (bilet, gündəlik yaşayış, tibbi və sair) təminatı barədə öhdəlik və ya bu xərcləri ödəyə biləcək maliyyə vəsaitinə malik olma barədə müvafiq sənəd, habelə dəvət edilən şəxsin əməkçi miqrantın və ya təhsil alan əcnəbi və vətəndaşlığı olmayan şəxsin ailə üzvü olmasını təsdiq edən sənəd və bu Məcəllənin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

M a d d ə 31. **Humanitar səfər məqsədi ilə verilən giriş vizası**

31.1. Humanitar səfər vizası Azərbaycan Respublikasında humanitar niyyətli fəaliyyət ilə məşğul olmaq, humanitar tədbirlər keçirmək və ya belə tədbirlərdə iştirak

etmək üçün Azərbaycan Respublikasının dövlət orqanlarının, bu sahədə fəaliyyət göstərən hüquqi şəxslərin qəbul edən tərəf qismində vəsatəti əsasında gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir.

31.2. Humanitar səfər vizasında ölkədə qalma müddəti 90 günədək müəyyən edilir.

31.3. Humanitar səfər vizasının rəsmiləşdirilməsi üçün bu Məcəllənin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

M a d d ə 32. **Mədəniyyət və idman məqsədləri ilə verilən giriş vizası**

32.1. Mədəniyyət və idman vizası Azərbaycan Respublikasında keçirilən mədəniyyət və idman tədbirlərində iştirak etmək üçün Azərbaycan Respublikasının dövlət orqanlarının, bu sahədə fəaliyyət göstərən hüquqi şəxslərin qəbul edən tərəf qismində vəsatəti əsasında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir.

32.2. Mədəniyyət və idman vizasında ölkədə qalma müddəti 60 günədək müəyyən edilir.

32.3. Mədəniyyət və idman vizasının rəsmiləşdirilməsi üçün bu Məcəllənin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

M a d d ə 33. **Turizm məqsədi ilə verilən giriş vizası**

33.1. Turizm vizası Azərbaycan Respublikasına turist kimi gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilir.

33.2. Turizm vizasında ölkədə qalma müddəti 30 günədək müəyyən edilir.

33.3. Turizm vizasının rəsmiləşdirilməsi üçün səfərin turizm məqsədi ilə həyata keçirildiyini təsdiqləyən sənəd (turizm vauçeri və ya turizm yollayışı, yaxud sərnişin bileti və mehmanxanada, kempinqdə, turist bazasında və ya digər bu kimi obyektlərdə yer sifariş edilməsini təsdiqləyən sənəd) və bu Məcəllənin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

~~33.4. Turistlərə elektron vizaların verilməsi qaydası bu Məcəllənin 38-ci maddəsi ilə müəyyən edilir.~~[20]

M a d d ə 34. **Tranzit vizası**

34.1. Tranzit vizası üçüncü ölkələrə gedən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisindən keçmək üçün verilir.

34.2. Tranzit vizasının etibarlılıq müddəti 30 günədək, ölkədə qalma müddəti isə 5 günədək müəyyən edilir. Tranzit vizaları hava, su, dəmiryol nəqliyyatı və digər nəqliyyat növü vasitəsi ilə gediş marşrutu və ona sərf olunan vaxt nəzərə alınmaqla verilir.

34.3. Tranzit vizasının rəsmiləşdirilməsi üçün təyinat ölkəsinə getmək vizasının (təyinat ölkəsinə səfər etmək üçün vizasız rejim müəyyən olunmuş ölkələr istisna olmaqla) və müraciət olunan ölkədən təyinat ölkəsinə getmək üçün nəqliyyat biletinin surətləri (əldə etmək mümkün olduğu təqdirdə) və ya bu səfəri təsdiq edən digər məlumatlar və bu Məcəllənin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

M a d d ə 35. **Viza blankında qeyd olunan məlumatlar**

35.1. Viza blankında "Azərbaycan Respublikası" sözləri, dövlət gerbi, vizanın seriyası və nömrəsi, növü, kateqoriyası, ölkəyə gəlişin məqsədi, viza sahibinin adı, soyadı, pasportunun nömrəsi, cinsi, anadan olduğu tarix, vətəndaşlığı, onunla gedənlərin ümumi sayı, vizanın verildiyi yer və tarix, vizanı verən səlahiyyətli şəxsin imzası və müvafiq dövlət orqanının möhürü, vizanın etibarlılıq müddətinin başlandığı və bitdiyi tarix, girişlərin sayı, vizanın etibarlılıq müddəti ərzində gəlişlərin sayından asılı olmayaraq viza sahibinə ölkədə qalmaq üçün icazə verilmiş günlərin cəmlənmiş sayı, viza sahibinin biometrik identifikasiya tələblərinə uyğun üz təsviri əks olunur.

35.2. Viza blankında nəzərdə tutulmuş parametrlərin adları Azərbaycan və ingilis dillərində yazılır.

35.3. Viza blankının nümunəsi, təsviri və spesifikasiyası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

35.4. Viza blankının fərdi olaraq doldurulması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

M a d d ə 36. **Viza verilməsi üçün tələb olunan sənədlər**

36.1. Viza verilməsi üçün aşağıdakı sənədlər tələb olunur:

36.1.1. nümunələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş ərizə-anket;

36.1.2. pasport və ya digər sərhədkeçmə sənədi (pasportun və ya digər sərhədkeçmə sənədinin etibarlılıq müddəti verilməsi nəzərdə tutulan viza müddətinin bitməsi tarixindən azı 3 ay artıq olmalıdır) və onların əsas səhifələrinin surətləri;

36.1.3. biometrik identifikasiya tələblərinə uyğun iki ədəd rəngli fotoşəkil (3x4sm);

36.1.4. tibbi sığorta şəhadətnaməsinin surəti (dəvət edən tərəf tibbi xidmətləri öz üzərinə götürmədikdə);

36.1.5. viza verilməsi üçün dövlət rüsumunun ödənilməsi barədə sənəd;

36.1.6. nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəfin vəsatəti *(tranzit və turizm vizaları üçün bu sənəd tələb olunmur);*[21]

*36.1.6-1. Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəf qeyri-dövlət təşkilatı olduğu halda həmin qurumun dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin surəti;*[22]

*36.1.6-2. dəvətin səbəbini təsdiq edən sənəd (tranzit, turizm, rəsmi və şəxsi səfər vizaları üçün bu sənəd tələb olunmur);*

36.1.7. səfərin məqsədindən asılı olaraq, bu Məcəllənin 25–34-cü maddələrində göstərilən müvafiq sənədlər.

36.2. 18 yaşına çatmamış, lakin pasport sahibi olan və valideyni və ya qanuni nümayəndəsi ilə birgə səfər etməyən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirilməsi üçün bu Məcəllənin 36.1-ci maddəsində qeyd olunan sənədlərdən əlavə, notariat qaydasında təsdiq olunmuş doğum haqqında şəhadətnamənin surəti, valideynlərin və ya qanuni nümayəndənin icazəsi və onların şəxsiyyətlərini təsdiq edən sənədlərin surətləri də tələb olunur.

36.3. Viza verilməsi üçün alınan dövlət rüsumunun məbləği Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyən edilir. Viza verilməsi üçün ödənilən dövlət rüsumu, müraciətə baxılmanın nəticəsindən asılı olmayaraq, geri qaytarılmır.

M a d d ə 37. **Vizaların rəsmiləşdirilməsi qaydası**

37.1. Əcnəbi və vətəndaşlığı olmayan şəxs viza verilməsi haqqında vəsatətlə yaşadığı ölkədə və ya üçüncü ölkələrdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə və konsulluqlarına şəxsən və ya nümayəndəsi vasitəsi ilə müraciət edir.

37.2. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər vizanı Azərbaycan Respublikasının ərazisində ala bilərlər.

37.3. Viza verilməsi haqqında vəsatət elektron müraciət formasında da təqdim edilə bilər.

37.4. Viza verilməsi üçün tələb olunan sənədlərin siyahısı, ərizə-anketin forması, dövlət rüsumunun məbləği və ödənilməsi qaydası, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarının olmadığı ölkələrdə yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza alınması üçün müraciət olunmalı üçüncü ölkələrdə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları barədə məlumat müvafiq icra hakimiyyəti orqanının, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının rəsmi internet saytlarında və binalarının qarşısında hər kəsin yaxşı görə biləcəyi lövhələrdə yerləşdirilir.

37.5. Vizanın rəsmiləşdirilməsi "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsi ilə həyata keçirilir.

37.6. Viza verilməsi haqqında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vəsatətlərinə müraciət olunduğu gündən ən geci on beş gün keçənədək, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən hallarda, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin səfəri təcili müalicə, yaxud Azərbaycan Respublikasında

yaşayan yaxın qohumunun ağır xəstəliyi və ya ölümü ilə bağlıdırsa (bu faktları təsdiq edən sənəd təqdim olunmaqla) ən geci iki iş günü ərzində baxılır.

37.7. Vizanın verilməsi barədə ərizənin düzgün doldurulması və tələb olunan sənədlərin tamlığı diplomatik nümayəndəlik və ya konsulluq tərəfindən yoxlanıldıqdan sonra həmin məlumatlar dərhal "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edilir və gücləndirilmiş elektron imza ilə təsdiq edilir.

37.8. Viza verilməsi məsələsinə baxılarkən müvafiq icra hakimiyyəti orqanı tərəfindən məlumatların düzgünlüyü və tamlığı yoxlanılır, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahıları ilə müqayisələr aparılır, razılaşdırılma məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının rəyi alınır, bu işlərin nəticəsindən asılı olaraq qəbul edilən yekun rəy diplomatik nümayəndəlik və ya konsulluğa təqdim edilir.

37.9. Viza verilməsi məqsədəuyğun hesab edildikdə diplomatik nümayəndəlik və ya konsulluq tərəfindən viza blankının fərdiləşdirilməsi, verilməsi və qeydə alınması təmin edilir.

37.10. Bu Məcəllənin 16.1-ci maddəsində nəzərdə tutulmuş hallarda viza verilməsi haqqında vəsatət rədd edilir, əvvəl verilmiş viza isə ləğv edilir. Təkrar vəsatətə imtinanı doğuran səbəblər aradan qaldırıldıqdan sonra baxılır.

37.11. Viza verilməsi haqqında vəsatətə baxılmasında süründürməçiliyə yol verilməsindən və ya vəsatətə baxmaqdan imtina edilməsindən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər inzibati qaydada və (və ya) Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məhkəməyə şikayət edə bilərlər.

*37.12. Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə elektron vizaların verilməsi qaydası bu Məcəllənin 38-ci maddəsi ilə müəyyən edilir.*[23]

### *M a d d ə 38.* ***Elektron vizalar***[24]

*38.1. Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər "ASAN Viza" sistemi vasitəsilə elektron viza ala bilərlər. Elektron qaydada verilən birdəfəlik vizada ölkədə qalma müddəti 30 günədək, çoxdəfəlik vizada isə 90 günədək müəyyən edilir.*[25]

*38.2. "ASAN Viza" sisteminin fəaliyyətinin təşkili, elektron vizanın alınması üçün elektron müraciət formasına daxil edilməli olan məlumatlar, elektron viza blankının təsviri və nümunəsi müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi əsasnamədə müəyyən edilir.*

*38.3. Elektron viza siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən ölkələrin vətəndaşlarına və həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə verilir.*

*38.4. Elektron viza almaq üçün əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər "ASAN Viza" sistemində yerləşdirilmiş elektron müraciət formasında nəzərdə tutulan məlumatları sistemə daxil etməli, müraciətin qəbul olunması barədə müvafiq təsdiqnamə aldıqdan sonra "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunu elektron qaydada ödəməlidirlər.*

~~*38.5. "ASAN Viza" sistemi elektron viza alınması üçün daxil olmuş elektron müraciəti real vaxt rejimində "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə göndərir.*~~[26]

*38.6. Elektron vizanın verilməsi ilə bağlı müraciət qəbul edildikdən sonra ən geci 3 iş günü, elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə isə ən geci 3 saat müddətində "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahıları üzrə yoxlama aparılır, imtina üçün əsas olmadıqda viza rəsmiləşdirilərək müraciət etmiş şəxsin elektron poçt ünvanına göndərilir. Viza verilməsindən imtina edildikdə, müraciət etmiş şəxsin elektron poçt ünvanına bu barədə məlumat göndərilir.* [27]

*38.7. "ASAN Viza" sistemi elektron vizaların verilməsi və ya verilməsindən imtina ilə bağlı məlumatları, habelə elektron müraciət formasında nəzərdə tutulan məlumatları "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin "Viza" altsistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanına göndərir.*

*38.8. Elektron viza pasporta yapışdırılmır, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqəsindən keçərkən çap edilmiş elektron vizanı və ya həmin vizanın məlumatlarını sərhədkeçmə sənədi ilə birgə təqdim edir. Dövlət sərhədinin buraxılış məntəqəsindən keçərkən pasportda şəxsin Azərbaycan Respublikasının ərazisinə daxil olması və Azərbaycan Respublikasının ərazisini tərk etməsi barədə qeyd aparılır. Bu barədə məlumat "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə real vaxt rejimində "ASAN Viza" sisteminə ötürülür.*[28]

*38.9. Bu Məcəllənin 16.1-ci maddəsində nəzərdə tutulmuş hallarda elektron viza verilməsi haqqında müraciət rədd edilir, verilmiş viza ləğv edilir və şəxs ölkəyə buraxılmır. Təkrar müraciətə imtinanı doğuran səbəblər aradan qaldırıldıqdan sonra baxılır.*

*38.10. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər yalnız Azərbaycan Respublikasının ərazisini tərk etdikdən sonra yeni elektron vizanın alınması üçün müraciət edə bilərlər.*

*38.11. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər (Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadılmış və ya müvəqqəti yaşamaq icazəsi almış şəxslər istisna olmaqla) ölkəyə daxil olarkən təqdim etdikləri elektron viza əsasında Azərbaycan Respublikasının ərazisini tərk etməlidirlər.*[29]

## *FƏSİL 6*

## ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN AZƏRBAYCAN RESPUBLİKASINDA MÜVƏQQƏTİ OLMA MÜDDƏTİNİN UZADILMASI

### M a d d ə 39. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması haqqında qərar**

39.1. Bu Məcəllənin 40-cı maddəsində müəyyən olunmuş hallarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti

müvafiq icra hakimiyyəti orqanı tərəfindən uzadıla bilər və bu barədə müvafiq qərar qəbul edilir.

39.2. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərar əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti olma hüququ verən rəsmi sənəddir.

39.3. Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadılmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər pasportlarını və ya digər sərhədkeçmə sənədlərini və müvəqqəti olma müddətinin uzadılması haqqında qərarı təqdim edərək, dövlət sərhədinin buraxılış məntəqələrindən keçməklə, ölkəni tərk edə bilərlər.

39.4. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərarın təsviri, spesifikasiyası və nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Maddə 40. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadıldığı hallar**

40.0. Bu Məcəllənin 43-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti aşağıdakı hallarda uzadılır:

40.0.1. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində təcili müalicə olunmasına zərurət yarandıqda;

40.0.2. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında yaşayan yaxın qohumları ağır xəstələndikdə və ya vəfat etdikdə;

40.0.3. xidməti zərurətlə əlaqədar Azərbaycan Respublikasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən nəzərdə tutulmuş işlərin başa çatdırılmadığına dair həmin şəxsləri ölkəyə dəvət etmiş təşkilat tərəfindən əsaslandırılmış vəsatət verildikdə;

40.0.4. Bu Məcəllənin 19.4-cü maddəsində nəzərdə tutulmuş hallarda.

Maddə 41. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması üçün tələb olunan sənədlər**

41.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

41.1.1. nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş ərizə-anket;

41.1.2. pasportun və ya digər sərhədkeçmə sənədinin surəti;

41.1.3. doğum haqqında şəhadətnamə və ya ona bərabər tutulan digər sənədin notariat qaydasında təsdiq olunmuş surəti (pasportu olmayan 18 yaşına çatmamış şəxslər üçün);

41.1.4. bu Məcəllənin 40-cı maddəsində nəzərdə tutulmuş müvəqqəti olma müddətinin uzadılmasına əsas olan halların mövcudluğunu təsdiq edən sənəd;

41.1.5. 3,5x4,5 sm ölçüdə iki ədəd fotoşəkil;

41.1.6. qeydiyyata alınacağı yaşayış sahəsinin sənədi (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə (kirayə) müqaviləsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər sənəd);

41.1.7. əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin ərizəsi (əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin mülkiyyətində yaşayış sahəsinin olduğu hallar istisna olmaqla);

41.1.8. əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin şəxsiyyətini təsdiq edən sənədinin surəti (əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin mülkiyyətində yaşayış sahəsinin olduğu hallar istisna olmaqla);

41.1.9. dövlət rüsumunun ödənilməsi barədə sənəd.

41.2. Dövlət rüsumunun ödənilməsi barədə sənəd Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərar əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə təqdim edildiyi zaman verilir.

***Qeyd:*** *Bu Məcəllənin 41.1.2-ci, 41.1.6-cı və 41.1.8-ci maddələrində göstərilən sənədlərin surətləri həmin sənədlərin əsli ilə birgə təqdim edilir və tutuşdurma aparıldıqdan sonra sənədlərin əsli onları təqdim etmiş şəxsə qaytarılır.*[30]

Maddə 42. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması qaydası**

42.1. Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti onların və ya qanuni nümayəndələrinin müraciəti əsasında bu Məcəllənin 40-cı maddəsində nəzərdə tutulan hallarda 60 günədək uzadıla bilər.

42.2. 18 yaşına çatmamış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti valideyninin və ya digər qanuni nümayəndəsinin müraciəti əsasında uzadılır.

42.3. Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə ərizə-anket və tələb olunan digər sənədlər elektron müraciət formasında təqdim edilə bilər.

42.4. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin bitməsinə azı 3 iş günü qalmış (tranzit keçidi zamanı məcburi dayanma halları istisna olmaqla) müvəqqəti olma müddətinin uzadılması üçün müvafiq icra hakimiyyəti orqanına müraciət edərək tələb olunan sənədləri təqdim etməlidirlər.

42.5. Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılmasına dair əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciəti ilə əlaqədar 3 iş günü ərzində müvafiq qərar qəbul edilir.

42.6. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması məsələsi həll edilərkən, müvafiq icra hakimiyyəti orqanı hər bir konkret halda onların Azərbaycan Respublikasında qalma səbəblərini araşdırır, bu Məcəllənin 43-cü maddəsində nəzərdə tutulmuş hallarda müddətin uzadılmasından imtina edir və müraciət etmiş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə imtina barədə yazılı məlumat verir və ya müvəqqəti olma müddətinin uzadılması ilə bağlı müraciəti müsbət həll edilmiş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması barədə qərar təqdim edir.

42.7. Müvəqqəti olma müddətinin uzadılmasından imtina edilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında müvəqqəti olma müddətləri bitənədək ölkə ərazisini tərk etməlidirlər. Müvəqqəti olma müddətinin uzadılması barədə müraciətə baxılanadək əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti bitdiyi halda, onlar imtina barədə qərarı aldıqları vaxtdan 48 saat ərzində ölkə ərazisini tərk etməlidirlər.

42.8. Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması ilə bağlı müvafiq məlumatların toplanması, müvəqqəti olma müddətinin uzadılması barədə qərarın fərdi olaraq doldurulması, verilməsi, habelə Azərbaycan Respublikasında müvəqqəti olma müddəti uzadılmış və ya müvəqqəti olma müddətinin uzadılmasından imtina edilmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması Vahid Miqrasiya Məlumat Sistemi vasitəsi ilə həyata keçirilir.

42.9. Xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşları, inzibati-texniki xidmət heyətinə daxil olan şəxslər və onların ailə üzvləri, həmçinin Azərbaycan Respublikasına xüsusi diplomatik missiya və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda xüsusi missiya ilə səfər edən əcnəbilər üçün ölkədə müvəqqəti olma müddətlərinin uzadılması bu Məcəlləyə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanı tərəfindən yeni viza verilməsi qaydasında həyata keçirilir.

M a d d ə 43. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılmadığı hallar**

43.1. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti aşağıdakı hallarda uzadılmır, əvvəl verilmiş müvəqqəti olma müddətinin uzadılması haqqında qərar isə ləğv edilir:

43.1.1. onların Azərbaycan Respublikasında müvəqqəti olması Azərbaycan Respublikasının milli təhlükəsizliyinə zərər vura biləcəyi hallarda;

43.1.2. onların Azərbaycan Respublikasında müvəqqəti olması ictimai asayişə zərər vura biləcəyi hallarda;

43.1.3. onlar Azərbaycan Respublikasında müvəqqəti olma müddətini uzatmaq məqsədi ilə saxta sənədlər və ya yalan məlumatlar təqdim etdikdə;

43.1.4. onların şəxsiyyətini təsdiq edən sənədləri olmadıqda;

43.1.5. onların Azərbaycan Respublikasının ərazisinə girişinə qadağa qoyulduqda;

43.1.6. onların Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətini uzatmaq üçün əsas olmuş hal aradan qalxdıqda;

43.1.7. onların Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə.

43.2. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin pasportlarının və ya digər sərhədkeçmə sənədlərinin etibarlılıq müddətlərinin bitməsinə 1 aydan az vaxt qaldıqda, onların ölkədə müvəqqəti olma müddəti uzadılmır.

## *FƏSİL 7*

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ MÜVƏQQƏTİ YAŞAMAQ ÜÇÜN İCAZƏ

M a d d ə 44. **Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün verilən icazə və bunu təsdiq edən sənəd**

44.1. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bunun üçün müvafiq icazə almalıdırlar.

44.2. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

44.3. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verildikdə, həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi təqdim edilir.

44.4. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə və etibarlılıq müddətində Azərbaycan Respublikasından getmək və viza almadan Azərbaycan Respublikasına qayıtmaq hüququ verən, habelə həmin şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəddir.

44.5. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin şəxsiyyətini təsdiq edən sənədlərdəki məlumatlar dəyişdikdə və ya icazə vəsiqəsi itirildikdə, onlar bu barədə 10 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməli və icazə

vəsiqəsinin yenidən rəsmiləşdirilməsi və ya ləğv edilməsi üçün ərizə təqdim etməlidirlər.

44.6. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin təsviri, spesifikasiyası və nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Maddə 45. **Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verildiyi hallar**

45.0. Bu Məcəllənin 50-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə aşağıdakı hallarda Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilir:

45.0.1. Azərbaycan Respublikasının vətəndaşı ilə yaxın qohumluq münasibətlərində olduqda;

45.0.2. ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyduqda;

45.0.3. Azərbaycan Respublikasının ərazisində azı 100.000 manat dəyərində daşınmaz əmlakı və ya Azərbaycan Respublikasının banklarında həmin məbləğdə pul vəsaiti olduqda;

45.0.4. iqtisadiyyat, sənaye, *hərbi*, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda;[31]

*45.0.4-1. bu Məcəllənin 64.0.8-1-ci maddəsində nəzərdə tutulmuş mütəxəssis olduqda;*[32]

45.0.5. Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ailə üzvləri olduqda;

45.0.6. xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı filial və nümayəndəliyinin rəhbəri və onun müavini vəzifəsini tutduqda;

*45.0.6-1. Azərbaycan Respublikasında təsis edilmiş və təsisçisi və ya təsisçilərdən ən azı biri xarici hüquqi və ya fiziki şəxs olan hüquqi şəxsin rəhbəri və onun müavini vəzifəsini tutduqda;*[33]

45.0.7. Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda;

45.0.8. Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün bu Məcəllə ilə müəyyən edilmiş qaydada iş icazəsi aldıqda;

45.0.9. Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrində əyani formada və ümumtəhsil müəssisələrində təhsil aldıqda;

45.0.10. dövlət qeydiyyatına alınmış dini qurumlarda peşəkar dini fəaliyyətlə məşğul olduqda;

45.0.11. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş əsaslar olduqda.

**QEYD:** Bu Məcəllənin 45.0.7-ci maddəsində göstərilən hal o vaxt Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsinə əsas hesab olunur ki, həmin şəxslər azı 5 nəfər ilə tam iş vaxtı şəraitində və ya 10 nəfər ilə natamam

iş vaxtı şəraitində əmək müqaviləsi bağlamaqla faktiki fəaliyyət göstərirlər. Bu hal üzrə işçilərin ən azı 80 faizinin Azərbaycan Respublikası vətəndaşı olması tələb olunur.

Maddə 46. **Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün tələb olunan sənədlər**

46.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsinin alınması (müddətinin uzadılması) üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

46.1.1. nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş ərizə-anket;

46.1.2. pasportun və ya digər sərhədkeçmə sənədinin surəti (pasportun və ya digər sənədin etibarlılıq müddəti verilməsi nəzərdə tutulan müvəqqəti yaşama icazəsinin müddətinin bitməsi tarixindən azı 3 ay artıq olmalıdır);

46.1.3. doğum haqqında şəhadətnamənin və ya ona bərabər tutulan digər sənədin notariat qaydasında təsdiq olunmuş surəti (pasportu olmayan 18 yaşına çatmayan şəxslər üçün);

46.1.4. müvəqqəti yaşamaq üçün icazənin verilməsinə əsas olan halların mövcudluğunu notariat qaydasında və ya ona bərabər tutulan qaydada təsdiq edən sənəd;

46.1.5. müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəliklərin siyahısında nəzərdə tutulmuş xəstəlik virusu daşıyıcısı olmaması haqqında arayış;

46.1.6. Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma və ya müvəqqəti yaşama hüququ verən sənədin surəti;

46.1.7. iqtisadiyyat, sənaye, *hərbi*, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olan əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasına dəvət edən idarə, müəssisə və təşkilatın əsaslandırılmış vəsatəti;[34]

46.1.8. 3,5x4,5 sm ölçüdə iki ədəd fotoşəkil;

46.1.9. qeydiyyata alınacağı yaşayış sahəsinin sənədi (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə (kirayə) müqaviləsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər sənəd);

46.1.10. əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin ərizəsi (əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin mülkiyyətində yaşayış sahəsinin olduğu hallar istisna olmaqla);

46.1.11. əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin şəxsiyyətini təsdiq edən sənədinin surəti (əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin mülkiyyətində yaşayış sahəsinin olduğu hallar istisna olmaqla);

46.1.12. dövlət rüsumunun ödənilməsi barədə sənəd.

46.2. Dövlət rüsumunun ödənilməsi barədə sənəd Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə təqdim edildiyi zaman verilir.

46.3. Müvəqqəti yaşamaq icazəsinin alınması üçün müraciət etmiş şəxsdən (15 yaşınadək uşaqlar istisna olmaqla) biometrik identifikasiya tələblərinə uyğun olaraq əl-barmaq izləri götürülür.

*46.4. Bu Məcəllənin 54.11-1-ci maddəsində nəzərdə tutulan müraciətə bu Məcəllənin 46.1.1-ci maddəsində göstərilən ərizə-anket əlavə olunmaqla daimi yaşama icazəsinin alınması (müddətinin uzadılması) üçün təqdim edilmiş sənədlər əsasında baxılır. Belə müraciətə baxılan zaman müvafiq icra hakimiyyəti orqanından yenidən rəy alınması tələb olunmur.*[35]

***Qeyd:*** *Bu Məcəllənin 46.1.2-ci, 46.1.9-cu və 46.1.11-ci maddələrində göstərilən sənədlərin surətləri həmin sənədlərin əsli ilə birgə təqdim edilir və tutuşdurma aparıldıqdan sonra sənədlərin əsli onları təqdim etmiş şəxsə qaytarılır.*[36]

M a d d ə 47. **Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsi (müddətinin uzadılması) qaydası**

47.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma və ya müvəqqəti yaşama müddətinin bitməsinə azı 30 gün qalmış bu barədə icazə alınması üçün müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidirlər.

47.2. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsini almaq üçün şəxsən və ya qanuni nümayəndələri vasitəsi ilə müraciət edirlər.

47.3. 18 yaşına çatmamış uşağın Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazəsi valideyninin və ya digər qanuni nümayəndəsinin müraciəti əsasında alınır.

47.4. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsi barədə ərizə-anket və tələb olunan digər sənədlər elektron müraciət formasında təqdim edilə bilər.

47.5. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə bağlı müraciətlərinə müvafiq icra hakimiyyəti orqanının rəyi nəzərə alınmaqla, 20 iş günü ərzində baxılır.

47.6. Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə bağlı müraciət etmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında 10 iş günü ərzində rəy verir.

47.7. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən 10 iş günü ərzində müvafiq rəy bildirilmədikdə, bu, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan

Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsinə etiraz olunmadığı kimi qəbul edilir.

47.8. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin müddətinin uzadılması icazənin verilməsi üçün müəyyən edilmiş qaydada həyata keçirilir.

47.9. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin müddəti bitənədək müvafiq icra hakimiyyəti orqanı tərəfindən icazənin müddəti uzadılmamışdırsa və ya belə uzadılma üçün ərizə qəbul edilməmişdirsə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisini tərk etməlidirlər.

47.10. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə bağlı müvafiq məlumatların toplanması və rəylərin alınması, müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin fərdi olaraq doldurulması və verilməsi, habelə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsi ilə əlaqədar müraciət etmiş, Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almış və ya belə icazənin verilməsindən imtina edilmiş, o cümlədən Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazəsi ləğv edilmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması Vahid Miqrasiya Məlumat Sistemi vasitəsi ilə həyata keçirilir.

M a d d ə 48. **Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina edilməsi**

48.1. Bu Məcəllənin 50-ci maddəsində nəzərdə tutulmuş hallarda əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina edilir.

48.2. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən əsaslandırılmalı və bu barədə onlara yazılı məlumat verilməlidir.

48.3. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina edildikdə, təkrar müraciətə həmin imtinaya əsas olmuş hallar aradan qalxdıqdan sonra baxılır.

48.4. Bu Məcəllənin 48.3-cü maddəsində göstərilən şəxslər ölkədə qanuni əsaslarla qaldıqları və ya yaşadıqları müddət ərzində müvafiq icra hakimiyyəti orqanına təkrar müraciət edərlərsə, yalnız müvəqqəti yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina edilməsinə əsas olan halın aradan qalxdığını təsdiq edən sənədi təqdim edirlər.

M a d d ə 49. **Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin müddəti**

49.1. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə, bu Məcəllənin 45.0.2-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, ərizəçinin müraciətində göstərilən, lakin 1 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 2 ildən çox olmayan müddətə uzadıla bilər.

49.2. Bu Məcəllənin 45.0.2-ci maddəsində göstərilən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə ərizəçinin müraciətində göstərilən, lakin 3 ildən artıq olmayan müddətə verilir və müvafiq əsas olduqda, hər dəfə 3 ildən çox olmayan müddətə uzadıla bilər.

49.3. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin müddəti uzadıldıqda, vəsiqə yenisi ilə əvəz edilir.

M a d d ə 50. **Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilmədiyi (müddətinin uzadılmadığı) hallar**

50.0. Aşağıdakı hallarda əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilmir (müddəti uzadılmır), əvvəl verilmiş icazə isə ləğv edilir:

50.0.1. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə və ya ictimai asayişə zərər vurula biləcəyi hallarda;

50.0.2. Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almaq məqsədi ilə saxta sənədlər və ya yalan məlumatlar təqdim etdikdə;

50.0.3. şəxsiyyətini təsdiq edən sənədləri olmadıqda və ya bu Məcəllənin 46-cı maddəsində nəzərdə tutulan sənədlərdən biri və ya bir neçəsi təqdim edilmədikdə;

50.0.4. pasportunun və ya digər sərhədkeçmə sənədinin etibarlılıq müddətinin bitməsinə 3 aydan az vaxt qaldıqda;

50.0.5. müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəliklərin siyahısında nəzərdə tutulmuş xəstəlik virusu daşıyıcısı olduqda (Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olanlar istisna olmaqla);

50.0.6. əvvəllər Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmaqla, həmin şəxslərin ölkəyə girişinə məhdudiyyət qoyulduqda;

50.0.7. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamağa icazə alınması üçün əsas olmuş hal aradan qalxdıqda və müvəqqəti yaşamağa icazə alınması ilə bağlı bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar olmadıqda;

50.0.8. 180 gün ərzində 90 gündən çox Azərbaycan Respublikasının ərazisindən kənarda olduqda;

50.0.9. xarici dövlətdə daimi yaşamaq üçün Azərbaycan Respublikasının ərazisini tərk etdikdə;

50.0.10. Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə;

50.0.11. barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılma barədə qərar qəbul edildikdə;

50.0.12. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşadığı dövrdə Azərbaycan Respublikasına gəlişinin bəyan edilmiş məqsədini pozduqda;

*50.0.13. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarını pozduğuna görə barəsində tətbiq edilmiş inzibati cəriməni ödəmədikdə.*[37]

M a d d ə 51. **İş icazəsi**

51.1. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq və haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müvəqqəti yaşamaq üçün icazə ilə yanaşı, iş icazəsi almalıdırlar.

51.2. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər iş icazəsini onları işə cəlb edən hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri vasitəsi ilə alırlar.

51.3. İş icazəsi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmalarına icazə verən rəsmi sənəddir.

51.4. İş icazəsi bu Məcəllə ilə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

51.5. İş icazəsinin verilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən əmək miqrasiyası kvotası çərçivəsində həyata keçirilir.

51.6. Kvota yerli əmək ehtiyatlarından səmərəli istifadə edilməsi və əmək miqrasiyası proseslərinin tənzimlənməsi sahəsindəki işlərin effektivliyinin artırılması məqsədi ilə tətbiq edilir. Kvota daxili əmək bazarının vəziyyəti, işçi qüvvəsinə tələbat, iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğu, məşğulluq xidməti orqanlarının işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanı, habelə yüksək ixtisaslı əcnəbi mütəxəssislərin cəlb edilməsi zəruriliyi nəzərə alınmaqla müəyyən edilir.

51.7. Əmək miqrasiyası kvotasının müəyyən edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

51.8. İş icazəsi blankının ciddi hesabat sənədi kimi qeydiyyat seriyası və nömrəsi, habelə qiymətli kağızların səviyyəsində qoruyucu nişanları olmalıdır. İş icazəsinin təsviri, spesifikasiyası və nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

## *FƏSİL 8*

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ DAİMİ YAŞAMAQ ÜÇÜN İCAZƏ

M a d d ə 52. **Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün verilən icazə və bunu təsdiq edən sənəd**

52.1. Bu Məcəllənin 45.0.1–45.0.7-ci maddələrində nəzərdə tutulmuş əsaslarla müvafiq icazə əsasında azı 2 il Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsi almaq üçün vəsatət verə bilərlər.

52.2. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

52.3. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə verildikdə, həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi təqdim edilir.

52.4. Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə və etibarlılıq müddətində Azərbaycan Respublikasından getmək və viza almadan Azərbaycan Respublikasına qayıtmaq hüququ verən, habelə həmin şəxslərin ölkə ərazisində şəxsiyyətini və yaşayış yeri üzrə qeydiyyata alındığını təsdiq edən sənəddir.

52.5. Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsinin təsviri, spesifikasiyası və nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

M a d d ə 53. **Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün tələb olunan sənədlər**

53.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsinin alınması (müddətinin uzadılması) üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

53.1.1. nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş ərizə-anket;

53.1.2. pasportun və ya digər sərhədkeçmə sənədinin surəti;

53.1.3. doğum haqqında şəhadətnamə və ya ona bərabər tutulan digər sənədin notariat qaydasında təsdiq olunmuş surəti (pasportu olmayan 18 yaşına çatmamış şəxslər üçün);

~~53.1.4. ailə tərkibi haqqında (ailə üzvlərinin adı, soyadı, təvəllüdü, məşğuliyyəti, yaşadığı və ya olduğu yer göstərilməklə) arayış;~~[38]

~~53.1.5. nikah haqqında şəhadətnamənin notariat qaydasında təsdiq olunmuş surəti;~~

53.1.6. müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəliklərin siyahısında nəzərdə tutulmuş xəstəlik virusu daşıyıcısı olmaması haqqında arayış;

53.1.7. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin və onlarla gələn ailə üzvlərinin minimal tələbatını ödəyə bilən vəsaiti olması barədə sənəd (yaxın qohumu olan Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış şəxs ölkədə qaldıqları vaxtda onların təminatını öz üzərinə götürdüyü hallar istisna olmaqla);

~~53.1.8. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin peşə ixtisası olduğu təqdirdə, bunu təsdiq edən sənədlərin notariat qaydasında təsdiq olunmuş surətləri;~~

53.1.9. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsinin surəti;

53.1.10. Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə alınmasına əsas olmuş halların aradan qalxmadığını sübut edən sənədlərin notariat qaydasında təsdiq olunmuş surəti;

53.1.11. 3,5x4,5 sm ölçüdə iki ədəd fotoşəkil;

53.1.12. 14-18 yaşında olan uşaqların notariat qaydasında təsdiq edilmiş razılığı;

53.1.13. qeydiyyata alınacağı yaşayış sahəsinin sənədi (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə (kirayə) müqaviləsi və ya Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər sənəd);

53.1.14. əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin ərizəsi (əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin mülkiyyətində yaşayış sahəsinin olduğu hallar istisna olmaqla);

53.1.15. əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə yaşayış sahəsi verən şəxsin şəxsiyyətini təsdiq edən sənədin surəti (əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin mülkiyyətində yaşayış sahəsinin olduğu hallar istisna olmaqla);

53.1.16. dövlət rüsumunun ödənilməsi barədə sənəd.

53.2. Dövlət rüsumunun ödənilməsi barədə sənəd Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə təqdim edildiyi zaman verilir.

53.3. Daimi yaşama icazəsinin alınması üçün müraciət etmiş şəxsdən (15 yaşınadək uşaqlar istisna olmaqla) biometrik identifikasiya tələblərinə uyğun olaraq əl-barmaq izləri götürülür.

***Qeyd:*** *Bu Məcəllənin 53.1.2-ci, 53.1.13-cü və 53.1.15-ci maddələrində göstərilən sənədlərin surətləri həmin sənədlərin əsli ilə birgə təqdim edilir və tutuşdurma aparıldıqdan sonra sənədlərin əsli onları təqdim etmiş şəxsə qaytarılır.*[39]

M a d d ə 54. **Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazənin verilməsi (müddətinin uzadılması) qaydası**

54.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda, Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşama icazəsinin müddətinin bitməsinə ən azı 3 ay qalmış bu barədə icazə alınması üçün müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidirlər.

54.2. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında daimi yaşamaq üçün şəxsən və ya qanuni nümayəndələri vasitəsi ilə müraciət edirlər.

54.3. 14 yaşına çatmamış uşağın Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazəsi valideyninin və ya digər qanuni nümayəndəsinin müraciəti əsasında, 14-18 yaşı olan uşağın isə razılığı alınmaqla, valideyninin və ya digər qanuni nümayəndəsinin müraciəti əsasında alınır.

54.4. Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazənin verilməsi barədə ərizə-anket və tələb olunan digər sənədlər elektron müraciət formasında təqdim edilə bilər.

54.5. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə verilməsi ilə bağlı müraciətlərinə baxılarkən, onların Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hüquq və vəzifələri, habelə dövlət dili ilə bağlı biliyi müvafiq icra hakimiyyəti orqanlarının mütəxəssislərindən ibarət komissiya tərəfindən yoxlanılır.

54.6. Müvafiq icra hakimiyyəti orqanı müraciət etmiş şəxslərin sənədlərini baxılması və rəy bildirilməsi üçün müvafiq icra hakimiyyəti orqanına göndərir.

54.7. Müvafiq icra hakimiyyəti orqanı 1 ay müddətində daxil olmuş sənədlərlə bağlı yoxlama apardıqdan sonra sənədləri müvafiq icra hakimiyyəti orqanına qaytarır. Müvafiq icra hakimiyyəti orqanının 1 ay ərzində rəy bildirməməsi daimi yaşamaq üçün icazənin verilməsinə etiraz olunmadığı kimi qəbul edilir.

54.8. Müvafiq icra hakimiyyəti orqanı daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanına və digər aidiyyəti qurumlara müvafiq sorğular göndərir və rəsmi arayışlar alır.

54.9. Azərbaycan Respublikasında daimi yaşama icazəsi almaq üçün müraciət etmiş şəxsin vəsatətinə 2 ay müddətində baxılmaqla, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq qərar qəbul edilir.

54.10. Həmin qərarda daimi yaşamaq üçün icazə almaq istəyən şəxsin müraciətinin təmin edilməsi və ya rədd edilməsi əsaslandırılmalı və bu qərarın surəti ona verilməlidir.

54.11. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazənin verilməsindən imtina edildikdə, imtina edildiyi gündən etibarən bir ay müddətində imtinaya səbəb olan hal aradan qalxdıqda, müvafiq icra

hakimiyyəti orqanına təkrar müraciət edilə bilər. Bu halda yalnız imtina edilməsinə səbəb olan halın aradan qalxdığını təsdiq edən sənəd təqdim edilir.

*54.11-1. Daimi yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtinaya səbəb olan hal aradan qalxmazsa və bu hal müvəqqəti yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina üçün əsas deyildirsə, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazənin alınması (müddətinin uzadılması) ilə bağlı bu Məcəllənin 54.11-ci maddəsində nəzərdə tutulan müddətdə müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilərlər.*[40]

54.12. Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə 5 il müddətinə verilir. Bu müddətin bitməsinə azı 3 ay qalmış əcnəbinin və vətəndaşlığı olmayan şəxsin müraciətinə əsasən daimi yaşamaq üçün verilmiş icazə yenidən 5 il müddətinə uzadıla bilər. Uzadılmaların sayı məhdudlaşdırılmır. Bu zaman bu Məcəllənin 53-cü maddəsində nəzərdə tutulan sənədlər yenidən təqdim olunur.

54.13. Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə verilməsi ilə bağlı müvafiq məlumatların toplanması və rəylərin alınması, daimi yaşamaq üçün icazə vəsiqəsinin fərdi olaraq doldurulması və verilməsi, habelə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə verilməsi ilə əlaqədar müraciət etmiş, Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış və ya belə icazənin verilməsindən imtina edilmiş, o cümlədən Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazəsi ləğv edilmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması Vahid Miqrasiya Məlumat Sistemi vasitəsi ilə həyata keçirilir.

### Maddə 55. **Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazənin verilmədiyi (müddətinin uzadılmadığı) hallar**

55.0. Aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə verilmir (müddəti uzadılmır), əvvəl verilmiş icazə isə ləğv edilir:

55.0.1. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə və ya ictimai asayişə zərər vurula biləcəyi hallarda;

55.0.2. siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəlik virusu daşıyıcısı olduqda (Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olanlar istisna olmaqla);

55.0.3. şəxsiyyətini təsdiq edən sənədləri olmadıqda və ya bu Məcəllənin 53-cü maddəsində nəzərdə tutulan sənədlərdən biri və ya bir neçəsi təqdim edilmədikdə;

55.0.4. Azərbaycan Respublikasında daimi yaşamaq icazəsi almaq üçün saxta sənədlər təqdim edildikdə və ya yalan məlumatlar verildikdə;

55.0.5. qəsdən ağır və ya xüsusilə ağır cinayət törətdiyinə görə məhkum olunduqda, əgər məhkumluğu qanunla müəyyən edilmiş qaydada ödənilməmişdirsə və ya götürülməmişdirsə;

55.0.6. özlərinin və onlarla gələn ailə üzvlərinin minimal tələbatını ödəyə bilən vəsaiti olmadıqda (yaxın qohumu olan Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış şəxs ölkədə qaldıqları vaxtda onların təminatını öz üzərinə götürdüyü hallar istisna olmaqla);

55.0.7. xarici dövlətdə daimi yaşamaq üçün Azərbaycan Respublikasının ərazisini tərk etdikdə;

55.0.8. daimi yaşamaq üçün icazənin verildiyi gündən *hesablanmaqla istənilən* bir il ərzində Azərbaycan Respublikasının ərazisindən kənarda olduğu günlərin cəmi 180 gündən çox olduqda;[41]

55.0.9. Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamağa icazə alması üçün əsas olmuş hallar aradan qalxdıqda;

55.0.10. Azərbaycan Respublikasının ərazisində daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hüquq və vəzifələrini, habelə dövlət dilini bilmədikdə;

55.0.11. Azərbaycan Respublikasında olması arzuolunmaz hesab edildikdə;

55.0.12. barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılma barədə qərar qəbul edildikdə;

55.0.13 Azərbaycan Respublikasının ərazisində daimi yaşadığı dövrdə Azərbaycan Respublikasına gəlişinin bəyan edilmiş məqsədini pozduqda;

*55.0.14. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olması və yaşaması qaydalarını pozduğuna görə barəsində tətbiq edilmiş inzibati cəriməni ödəmədikdə.*[42]

Maddə 56. **Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina edilməsi və ya daimi yaşamaq üçün icazənin ləğv edilməsi haqqında qərardan şikayət verilməsi**

Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazənin verilməsindən (müddətinin uzadılmasından) imtina və ya daimi yaşamaq üçün icazənin ləğv edilməsi haqqında qərardan Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilə bilər.

## IV BÖLMƏ

## ƏMƏK MİQRASİYASI

### *FƏSİL 9*

### ƏMƏK MİQRASİYASININ DÖVLƏT TƏNZİMİ

M a d d ə 57. **Əmək miqrasiyasının dövlət tərəfindən tənzimlənməsi və bu sahədə nəzarət**

57.1. Dövlət əmək miqrasiyası kvotasının tətbiq edilməsi, iş icazələrinin verilməsi, o cümlədən Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyətinə xüsusi razılıq verilməsi yolu ilə əmək miqrasiyasını tənzimləyir.

57.2. Müvafiq dövlət orqanları əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinin qanuniliyinə, onların sosial müdafiəsinin təmin olunmasına, hüquqi və fiziki şəxslərin əmək miqrasiyası sahəsindəki fəaliyyətlərinə nəzarəti həyata keçirirlər.

## *FƏSİL 10*

## AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ XARİCİ ÖLKƏLƏRDƏ ƏMƏK FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ

M a d d ə 58. **Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə əmək fəaliyyəti**

58.1. 18 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul ola bilərlər.

58.2. Azərbaycan Respublikasının vətəndaşları xarici hüquqi və ya fiziki şəxslərin birbaşa dəvəti, Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçmiş hüquqi şəxslərin vasitəçiliyi ilə və ya fərdi qaydada xarici ölkələrdə işə düzələ bilərlər.

58.3. Azərbaycan Respublikasının vətəndaşları xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olduqda, hüquqlarının dövlət tərəfindən müdafiəsinin tam şəkildə təmin edilməsi məqsədi ilə təyinat ölkələrinə gəldikdən sonra 1 ay müddətində Azərbaycan Respublikasının həmin ölkədəki diplomatik nümayəndəliyində və ya konsulluğunda qeydiyyatdan keçməli və həmin ölkədə işləmələri barədə rəsmi sənəd təqdim etməlidirlər.

58.4. Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları qeydiyyatdan keçən Azərbaycan Respublikasının vətəndaşları haqqında məlumatı 1 ay müddətində müvafiq icra hakimiyyəti orqanına verirlər. Müvafiq icra hakimiyyəti orqanı bu barədə müntəzəm olaraq müvafiq icra hakimiyyəti orqanlarını xəbərdar etməlidir.

58.5. Xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikası vətəndaşlarının işlədikləri ölkədə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsulluğu olmadıqda, onlar 1 ay müddətində işləmələri barədə rəsmi sənədi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına göndərməlidirlər.

M a d d ə 59. **Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik**

59.1. Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçmiş hüquqi şəxslər Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik edə bilərlər. Hüquqi şəxslər bu sahədə fəaliyyət göstərmək üçün müvafiq icra hakimiyyəti orqanından müəyyən olunmuş qaydada xüsusi razılıq almalıdırlar.

59.2. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyətinə xüsusi razılığın verilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq icra hakimiyyəti orqanının rəyi nəzərə alınmaqla həyata keçirilir. Müvafiq icra hakimiyyəti orqanı bu barədə 5 iş günü ərzində rəy verir.

59.3. Vasitəçilik fəaliyyətini həyata keçirmək hüququ verən xüsusi razılıq almış hüquqi şəxslər, xarici ölkələrin hüquqi və fiziki şəxsləri ilə bağladıqları və müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş müqavilələr əsasında Azərbaycan Respublikasının vətəndaşlarını xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyətinə cəlb edə bilərlər.

59.4. Vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslərin xarici ölkələrin hüquqi və fiziki şəxsləri ilə bağladıqları müqavilələrdə və təklif olunan əmək müqavilələrində Azərbaycan Respublikası vətəndaşlarının sosial müdafiəsinin beynəlxalq normalara uyğun şəkildə təmin olunması nəzərdə tutulmalıdır.

59.5. Vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslər təklif olunan əmək müqaviləsinin bir nüsxəsinin əməkçi miqrant Azərbaycan Respublikasını tərk etməzdən əvvəl ona çatdırılmasını təmin etməlidirlər. Vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslərin göstərdikləri xidmətə görə əməkçi miqrantlardan haqq almalarına yol verilmir.

59.6. Vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslər xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyətinə cəlb etdikləri Azərbaycan Respublikasının vətəndaşları haqqında müvafiq icra hakimiyyəti orqanlarına məlumat verirlər.

59.7. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlməsində fiziki şəxslərin vasitəçilik fəaliyyəti qadağandır.

59.8. Müvafiq icra hakimiyyəti orqanı vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslərin bu sahədəki fəaliyyətinə dövlət nəzarətini həyata keçirir.

59.9. Vasitəçilik fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığın müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada uzadıla, qüvvəsi müvəqqəti dayandırıla və ya ləğv edilə bilər.

59.10. Vasitəçilik fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığın verilməsinə görə qanunla nəzərdə tutulmuş məbləğdə dövlət rüsumu ödənilir.

M a d d ə 60. **Xarici ölkələrdə işə düzəlmək məqsədi ilə Azərbaycan Respublikası vətəndaşlarının qeydiyyata alınması**

60.1. Xarici ölkələrdə işə düzəlmək məqsədi ilə Azərbaycan Respublikası vətəndaşlarının qeydiyyata alınmasını, bununla bağlı elan və reklamların verilməsini yalnız müvafiq vasitəçilik fəaliyyətini həyata keçirmək üçün xüsusi razılıq almış hüquqi şəxslər həyata keçirə bilərlər.

60.2. Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəldilməsi ilə bağlı kütləvi informasiya vasitələrində doğru olmayan məlumatların yayılmasına görə hüquqi şəxslər qanunla müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

## *FƏSİL 11*

## ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN AZƏRBAYCAN RESPUBLİKASINDA ƏMƏK FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ

Maddə 61. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyəti**

61.1. 18 yaşına çatmış əmək qabiliyyətli hər bir əcnəbi və vətəndaşlığı olmayan şəxs bu Məcəllə ilə müəyyən edilmiş qayda və şərtlərlə onu işə cəlb edən hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri vasitəsi ilə iş icazəsi aldıqdan sonra Azərbaycan Respublikasında işləyə bilər.

61.2. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün əsas şərtlər iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ya ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğundan, məşğulluq xidməti orqanları tərəfindən işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanının olmamasından ibarətdir.

Maddə 62. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin əmək fəaliyyətinə dair məhdudiyyətlər**

Daxili əmək bazarının tələbatı nəzərə alınmaqla, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına əmək miqrasiyasına müvafiq icra hakimiyyəti orqanı tərəfindən ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə məhdudiyyət qoyula bilər.

Maddə 63. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında işə cəlb olunması**

63.1. Hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasında işə cəlb edə bilərlər.

63.2. Hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri, bu Məcəllənin 64-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, işə cəlb etmək istədikləri hər bir əcnəbi və ya vətəndaşlığı olmayan şəxs üçün iş icazəsi almalıdırlar.

63.3. Hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri əcnəbi və vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqda da ona iş icazəsinin alınması üçün müraciət edə bilərlər.

63.4. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər hüquqi şəxslərin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin və xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin onlar üçün iş icazəsi almasından sonra Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul ola bilərlər.

63.5. Hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri işə cəlb etdikləri əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri yalnız öz iş yerlərində işlə təmin etməli və bu barədə onlarla iş icazəsinin qüvvədə olduğu müddətə əmək müqaviləsi bağlamalıdırlar. İş icazəsi alınmadan əcnəbilərlə əmək müqaviləsinin bağlanılmasına yol verilmir.

63.6. İşə cəlb edilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin pasportlarının və ya şəxsiyyətlərini təsdiq edən digər sənədlərinin hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri tərəfindən götürülərək saxlanılması qadağandır.

M a d d ə 64. **İş icazəsinin alınması tələb olunmayan hallar**

64.0. Aşağıdakı əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması tələb olunmur:

64.0.1. Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazəsi olanlara;

64.0.2. Azərbaycan Respublikasının ərazisində sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara;

64.0.3. diplomatik nümayəndəlik və konsulluqlarda işləyənlərə;

64.0.4. beynəlxalq təşkilatlarda işləyənlərə;

64.0.5. beynəlxalq müqavilələr əsasında yaradılmış təşkilatların rəhbərlərinə və onların müavinlərinə;

64.0.6. müvafiq icra hakimiyyəti orqanları tərəfindən işə cəlb edilənlərə;

*64.0.6-1. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə xidmətə və ya işə dəvət olunan hərbi qulluqçulara və mütəxəssislərə;*[43]

64.0.7. kütləvi informasiya vasitələrinin Azərbaycan Respublikasında akkreditə olunmuş əməkdaşlarına;

64.0.8. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyət sahələri üzrə il ərzində 90 gündən çox olmayan müddətdə Azərbaycan Respublikasında ezamiyyətdə olanlara;

*64.0.8-1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyət sahələri üzrə işlərin görülməsi və ya xidmətlərin göstərilməsi üçün Azərbaycan Respublikasının vətəndaşları və ya Azərbaycan Respublikasında təsis edilmiş hüquqi şəxslər tərəfindən dəvət edilmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi kateqoriyaya aid mütəxəssislərə;*[44]

64.0.9. dənizçilərə;

64.0.10. ali təhsil müəssisələrində mühazirə kurslarının oxunması üçün dəvət edilən professor-müəllim heyətinə və mühazirəçilərə;

64.0.11. incəsənət işçilərinə, müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatından keçmiş idman klublarına işə dəvət olunan məşqçilərə və idmançılara;

64.0.12. dövlət qeydiyyatına alınmış dini qurumlarda peşəkar dini fəaliyyətlə məşğul olanlara;

64.0.13. xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı filial və nümayəndəliyinin rəhbərləri və onların müavinlərinə;

*64.0.13-1. Azərbaycan Respublikasında təsis edilmiş və təsisçisi və ya təsisçilərdən ən azı biri xarici hüquqi və ya fiziki şəxs olan hüquqi şəxslərin rəhbərləri və onların müavinlərinə;*[45]

64.0.14. Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olanlara, bu şərtlə ki, həmin vətəndaş Azərbaycan Respublikasının ərazisində yaşayış yeri üzrə qeydiyyatda olsun;

64.0.15. qaçqın statusunun verilməsi üçün vəsatət verən, qaçqın statusu almış və ya siyasi sığınacaq verilmiş şəxslərə;

64.0.16. himayəsində 18 yaşına çatmamış və ya I qrup əlil Azərbaycan Respublikasının vətəndaşı olanlara;

64.0.17. müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən hallarda əmək fəaliyyətinə cəlb olunan şəxslərə.

M a d d ə 65. **İş icazəsinin verilməsi üçün tələb olunan sənədlər**

65.0. İş icazəsi almaq üçün işəgötürən müvafiq icra hakimiyyəti orqanına aşağıdakı sənədləri təqdim etməlidir:

65.0.1. nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən ərizə-anket;

65.0.2. əcnəbinin və vətəndaşlığı olmayan şəxsin pasportunun və ya digər sərhədkeçmə sənədinin surəti;

65.0.3. əcnəbinin və vətəndaşlığı olmayan şəxsin nəzərdə tutulan işi yerinə yetirmək üçün tələb edilən ixtisasa malik olduğunu təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti;

65.0.4. nəzərdə tutulan iş yeri üçün əcnəbinin və vətəndaşlığı olmayan şəxsin cəlb edilməsi zəruriliyini əsaslandıran arayış;

~~65.0.5. Azərbaycan Respublikasının ərazisində başqa əsaslarla olan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisində qalmasına hüquq verən müvafiq sənədin surəti;~~

65.0.6. işəgötürən:

65.0.6.1. hüquqi şəxs olduqda – hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin notariat qaydasında təsdiq edilmiş surətləri;

65.0.6.2. fiziki şəxs olduqda – fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin və fiziki şəxsə verilmiş vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin notariat qaydasında təsdiq edilmiş surətləri;

65.0.7. əcnəbinin və vətəndaşlığı olmayan şəxsin müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəliklərin siyahısında nəzərdə tutulmuş xəstəlik virusu daşıyıcısı olmaması haqqında arayış.

M a d d ə 66. **İş icazəsinin verilməsindən imtinanın əsasları**

66.0. Aşağıdakı hallarda əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsindən imtina edilir:

66.0.1. bu Məcəllənin 65-ci maddəsində nəzərdə tutulmuş sənədlər təqdim edilmədikdə;

66.0.2. təqdim edilən sənədlər saxta olduqda, onlarda qeyri-dəqiq və ya təhrif olunmuş məlumatlar olduqda;

66.0.3. işəgötürənin işçi qüvvəsinə olan tələbatının yerli əmək ehtiyatları hesabına ödənilməsi mümkün olduqda;

66.0.4. işə cəlb olunması nəzərdə tutulan əcnəbinin və vətəndaşlığı olmayan şəxsin 18 yaşı tamam olmadıqda;

66.0.5. əmək miqrasiyası kvotası dolduqda;

66.0.6. əcnəbi və vətəndaşlığı olmayan şəxs siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş yoluxucu xəstəliklərin daşıyıcısı olduqda;

66.0.7. əcnəbi və vətəndaşlığı olmayan şəxs cəlb olunduğu işin yerinə yetirilməsi üçün tələb olunan ixtisasa və ya iş təcrübəsinə malik olmadıqda.

M a d d ə 67. **İş icazəsi ilə bağlı müraciətlərə baxılması**

67.1. İş icazəsinin verilməsi üçün tələb olunan sənədlər yazılı və ya elektron müraciət formasında təqdim edilə bilər.

67.2. Təqdim olunmuş sənədlərdə çatışmazlıq, uyğunsuzluq və digər nöqsanlar aşkar edildikdə, müvafiq icra hakimiyyəti orqanı işəgötürənə bu barədə yazılı məlumat verir.

67.3. İş icazəsi ilə bağlı daxil olmuş müraciətlərə 20 iş günü ərzində baxılır.

67.4. Müvafiq icra hakimiyyəti orqanı bu Məcəllənin 65.0.2-ci, 65.0.3-cü, 65.0.4-cü~~,~~ ~~65.0.5-ci~~ və 65.0.7-ci maddələrində göstərilən sənədlər haqqında məlumatları rəy verilməsi üçün müvafiq icra hakimiyyəti orqanına göndərir.[46]

67.5. Müvafiq icra hakimiyyəti orqanı daxil olmuş məlumatlara 5 iş günü müddətində baxaraq, işəgötürənin işçi qüvvəsinə olan tələbatının yerli əmək ehtiyatları hesabına ödənilməsinin mümkün olub-olmaması ilə bağlı müvafiq icra hakimiyyəti orqanına rəy verir.

67.6. Müvafiq icra hakimiyyəti orqanının 5 iş günü ərzində rəy bildirməməsi iş icazəsinin verilməsinə etiraz olunmadığı kimi qəbul edilir.

67.7. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən iş icazəsinin verilməsindən imtina barədə qərar bu Məcəllənin 66-cı maddəsinə istinad olunmaqla əsaslandırılmalı və qərarın surəti işəgötürənə təqdim edilməlidir.

67.8. İşəgötürən iş icazəsinin verilməsindən imtinaya əsas olmuş hallar aradan qalxdıqdan sonra iş icazəsi almaq üçün bu Məcəlləyə uyğun olaraq yenidən müraciət edə bilər.

67.9. İşəgötürən həmin şəxslərin ölkədə qanuni əsaslarla qaldıqları və ya yaşadıqları müddətdə müvafiq icra hakimiyyəti orqanına yenidən müraciət edərsə, yalnız iş icazəsi verilməsindən imtina üçün əsas olan halın aradan qalxdığını təsdiq edən sənədi təqdim edir.

67.10. İş icazəsinin verilməsi haqqında qərar qəbul edildikdə, müvafiq icra hakimiyyəti orqanı 3 iş günü müddətində iş icazəsinin müəyyən olunmuş qaydada doldurulmasını və işəgötürənə təqdim olunmasını təmin edir.

67.11. İş icazəsi müvafiq icra hakimiyyəti orqanının səlahiyyətli vəzifəli şəxsi tərəfindən imzalanır və həmin orqanın möhürü ilə təsdiq edilir.

67.12. İş icazəsi bu icazəni almaq üçün dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim olunduqdan sonra işəgötürənə verilir.

67.13. İşəgötürən tərəfindən 30 gün müddətində iş icazəsinin alınmasına görə dövlət rüsumu ödənilmədikdə, habelə əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsindən imtina olunduqda, müvafiq icra hakimiyyəti orqanı iş icazəsini ləğv edir.

67.14. İş icazəsinin verilməsi ilə bağlı müvafiq məlumatların toplanması və rəylərin alınması, iş icazəsi blankının fərdi olaraq doldurulması və verilməsi, habelə iş icazəsi almış və ya belə icazənin verilməsindən imtina edilmiş, o cümlədən iş icazəsi ləğv edilmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması Vahid Miqrasiya Məlumat Sistemi vasitəsi ilə həyata keçirilir.

M a d d ə 68. **İş icazəsinin yenidən rəsmiləşdirilməsi**

68.1. Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədlərindəki məlumatlar və ya işlədiyi hüquqi şəxsin adı dəyişdikdə və ya iş icazəsi itirildikdə, onun işəgötürəni 5 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməli və belə icazənin yenidən rəsmiləşdirilməsi və ya ləğv edilməsi üçün ərizə təqdim etməlidir.

68.2. Bu Məcəllənin 68.1-ci maddəsində nəzərdə tutulan hallarda işəgötürən 10 iş günü müddətində müvafiq ərizə təqdim etmədikdə, əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə verilmiş icazə etibarsız hesab edilir.

68.3. İş icazəsi yenidən rəsmiləşdirildikdə, onun yenidən rəsmiləşdirilməsinin səbəbi ilə bağlı sənəd və əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə verilmiş iş icazəsinin surəti təqdim edilir.

68.4. İş icazəsinin yenidən rəsmiləşdirilməsi üçün dövlət rüsumu ödənilmir.

M a d d ə 69. **İş icazəsinin müddəti və həmin müddətin uzadılması**

69.1. İş icazəsi 1 il müddətinə, əmək müqaviləsinin 1 ildən az müddətə bağlanılması nəzərdə tutulduqda isə həmin müddətə verilir. İş icazəsinin müddəti hər dəfə 1 ildən çox olmamaq şərti ilə uzadıla bilər.

69.2. İş icazəsinin müddətinin uzadılması üçün işəgötürən iş icazəsinin müddətinin bitməsinə azı 30 gün qalmış müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət etməlidir.

69.3. İş icazəsinin müddətinin uzadılması üçün işəgötürən bu Məcəllənin 65.0.1-ci, 65.0.3-cü, 65.0.4-cü və 65.0.7-ci maddələrində nəzərdə tutulmuş sənədləri təqdim etməlidir.

69.4. İş icazəsinin müddətinin uzadılması bu Məcəllənin 67-ci maddəsində müəyyən olunmuş qaydada həyata keçirilir.

69.5. İş icazəsinin müddətinin uzadılmasına görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd təqdim edildikdən sonra müddəti uzadılmış iş icazəsi işəgötürənə təqdim edilir.

69.6. İşəgötürən tərəfindən 30 gün müddətində iş icazəsinin müddətinin uzadılmasına görə dövlət rüsumu ödənilmədikdə və ya əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsindən imtina olunduqda, müvafiq icra hakimiyyəti orqanı iş icazəsini ləğv edir.

M a d d ə 70. **İşəgötürənin əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi başqa işə keçirməsi**

70.1. Əcnəbi və vətəndaşlığı olmayan şəxs eyni işəgötürənin yanında başqa işə keçirildikdə onun üçün yeni iş icazəsi alınmalıdır. Hüquqi şəxsin yenidən təşkili

(birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) zamanı da əcnəbi və vətəndaşlığı olmayan şəxs üçün yeni iş icazəsi alınmalıdır.

70.2. Əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə eyni işəgötürənin yanında başqa işə keçirilməsi ilə bağlı yeni iş icazəsi verildikdə, həmin iş icazəsinin müddəti əvvəlki iş icazəsinin müddətinin qüvvədə qalan hissəsindən çox olmamalıdır.

70.3. Əcnəbi və vətəndaşlığı olmayan şəxs eyni işəgötürənin yanında başqa işə keçirildikdə, bu Məcəllənin 65.0.1-ci və 65.0.3-cü maddələrində nəzərdə tutulmuş sənədlər, hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) zamanı isə bu Məcəllənin 65.0.1-ci və 65.0.6.1-ci maddələrində nəzərdə tutulmuş sənədlər müvafiq icra hakimiyyəti orqanına təqdim edilir.

70.4. Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin eyni işəgötürənin yanında başqa işə keçirilməsi ilə bağlı yeni iş icazəsi verildikdə əlavə dövlət rüsumu ödənilmir.

70.5. Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin iş icazəsinin müddəti bitdikdə və ya əmək müqaviləsi vaxtından əvvəl pozulduqda, onu başqa işəgötürən yeni iş icazəsi almaqla öz yanında işə dəvət edə bilər.

70.6. İşəgötürən tərəfindən əcnəbi və vətəndaşlığı olmayan şəxsə eyni vaxtda iki iş icazəsinin alınması qadağandır.

M a d d ə 71. **Əmək müqaviləsi pozulduqda iş icazəsinin qüvvədən düşməsi**

71.1. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslə işəgötürən arasında bağlanılmış əmək müqaviləsi vaxtından əvvəl pozulduqda, işəgötürən bu barədə 5 iş günü ərzində müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir. Əmək müqaviləsi vaxtından əvvəl pozulduqda, şəxsə verilmiş iş icazəsi öz qüvvəsini itirir.

71.2. Əmək müqaviləsi vaxtından əvvəl pozulduqda və əməkçi miqrantın Azərbaycan Respublikasında qalması üçün başqa əsas olmadıqda, o, 10 iş günü müddətində Azərbaycan Respublikasının ərazisini tərk etməlidir.

M a d d ə 72. **İş icazəsinin qüvvədə olma qaydalarına nəzarət**

72.1. İş icazəsinin qüvvədə olma qaydalarına nəzarəti müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

72.2. Nəzarət qaydasında müvafiq icra hakimiyyəti orqanı:

72.2.1. əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən işçi qüvvəsi kimi istifadə edilməsini tənzimləyən normativ hüquqi aktlara və bu Məcəllənin tələblərinə riayət edilməsini yoxlayır;

72.2.2. yoxlama zamanı ortaya çıxan məsələlər haqqında işəgötürəndən, habelə əcnəbidən və vətəndaşlığı olmayan şəxsdən məlumat və ya arayış alır;

72.2.3. bu Məcəllənin 73-cü maddəsində nəzərdə tutulmuş hallarda iş icazəsini ləğv edir;

72.2.4. iş icazəsi olmadan işə cəlb edilmiş əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri, habelə həmin şəxsləri işə cəlb etmiş işəgötürənləri qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edir.

72.3. İşəgötürənlər yoxlamanın aparılması üçün zəruri olan normal şərait yaratmağa, tələb olunan sənədləri təqdim etməyə borcludurlar.

72.4. Yoxlama nəticəsində qanun pozuntusu aşkar olunduqda, bu barədə iki nüsxədən ibarət protokol, qanun pozuntusu aşkar olunmadıqda isə akt tərtib edilir. Protokolu (aktı) müvafiq icra hakimiyyəti orqanının səlahiyyətli şəxsləri və işəgötürən imzalayırlar. Protokolu (aktı) imzalamaqdan imtina edildikdə, bu barədə həmin sənəddə qeyd edilir. Protokola (akta) işəgötürənin izahatı əlavə olunur. Protokolun (aktın) bir nüsxəsi işəgötürəndə qalır.

72.5. Nəzarət qaydasında aparılan yoxlamalara digər dövlət orqanlarının nümayəndələri də cəlb edilə bilər.

M a d d ə 73. **İş icazəsinin ləğv edilməsi üçün əsaslar**

73.0. Aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanı iş icazəsini ləğv edir:

73.0.1. əcnəbidən və vətəndaşlığı olmayan şəxsdən, yaxud işəgötürəndən müvafiq ərizə daxil olduqda;

73.0.2. işəgötürənlə əcnəbi və vətəndaşlığı olmayan şəxs arasında bağlanmış əmək müqaviləsi vaxtından əvvəl pozulduqda;

73.0.3. iş icazəsi alınması üçün təqdim edilən sənədlərdə düzgün olmayan məlumatlar aşkar edildikdə;

73.0.4. bu Məcəllənin 67.13-cü, 68.2-ci və 69.6-cı maddələrində nəzərdə tutulan hallarda;

73.0.5. hüquqi şəxs olan işəgötürən ləğv edildikdə;

73.0.6. məhkəmənin müvafiq qərarı olduqda.

## V BÖLMƏ

## AZƏRBAYCAN RESPUBLİKASINDA ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN HÜQUQİ VƏZİYYƏTİ

### *FƏSİL 12*

### ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN HÜQUQİ VƏZİYYƏTİNİN ƏSASLARI

M a d d ə 74. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları**

74.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunda və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilərlər.

74.2. Azərbaycan Respublikası ərazisində yaşayan və ya müvəqqəti olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

74.3. Xarici dövlət onun ərazisində Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsinə məhdudiyyət qoyduqda, Azərbaycan Respublikasının qanunu ilə həmin dövlətin vətəndaşları üçün Azərbaycan Respublikasının ərazisində eyni məhdudiyyətlər müəyyən edilə bilər.

74.4. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onların sosial və əmlak vəziyyəti, irqi və milli mənsubiyyəti, cinsi, dili, dinə münasibəti, fəaliyyətinin növündən və xarakterindən və digər hallardan asılı olmayaraq, Azərbaycan Respublikasında qanun və məhkəmə qarşısında bərabərdirlər.

74.5. Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada tutulmuş, yaxud həbs edilmiş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə bu hərəkətlərə səbəb olan hallar və onların hüquqları haqqında dərhal məlumat verilməlidir.

74.6. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş imtiyaz və immunitetə malik olan əcnəbini və vətəndaşlığı olmayan şəxsi tutmuş, yaxud həbs etmiş orqan bu barədə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada dərhal müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.

74.7. Məhkum edilmiş əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər cəza çəkməkdən azad edildikdə, bu barədə cəzanı icra edən orqanın verdiyi məlumat əsasında müvafiq icra hakimiyyəti orqanı həmin şəxslərin Azərbaycan Respublikasında qalması və ya bu Məcəllənin 79.1.3-cü maddəsində göstərilən halda Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması məsələsini həll edir.

M a d d ə 75. **Əməkçi miqrantların hüquqları**

75.1. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş hallar istisna olmaqla, əməkçi miqrantlara əmək şəraiti ilə bağlı Azərbaycan Respublikasının vətəndaşları üçün qanunvericiliklə müəyyən olunmuş eyni şərtlər tətbiq edilir və onların əməyinin ödənilməsi qanunvericiliklə Azərbaycan Respublikasının vətəndaşları üçün müəyyən olunmuş qaydada həyata keçirilir.

75.2. Əməkçi miqrantların əmək fəaliyyəti ilə bağlı bu Məcəllədə nəzərdə tutulmayan digər məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

75.3. Əməkçi miqrant vəfat etdikdə, onu işə cəlb etmiş hüquqi və ya fiziki şəxs əməkçi miqrantın cənazəsinin daimi yaşadığı ölkəyə göndərilməsini təmin etməlidir.

75.4. İşəgötürənlər tərəfindən əməkçi miqrantların hüquqlarının təmin edilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

M a d d ə 76. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vəzifələri**

76.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün vəzifələri yerinə yetirməlidirlər.

76.2. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının milli mənafeyinə zidd olmamalıdır. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycan Respublikası qanunlarının və digər qanunvericilik aktlarının tələblərini pozmamalı, Azərbaycan xalqının adət və ənənələrinə hörmət etməlidirlər.

76.3. Azərbaycan Respublikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəyə gəlişinin bəyan edilmiş məqsədlərinə riayət etməli və müəyyən olunmuş müddət bitdikdən sonra ölkə ərazisini tərk etməlidirlər.

76.4. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müvafiq icra hakimiyyəti orqanının əməkdaşlarının qanuni tələblərinə əsasən, şəxsiyyətlərini təsdiq edən, habelə Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla olmalarını və ya yaşamalarını təsdiq edən sənədləri təqdim etməlidirlər.

76.5. Müəyyən vəzifələr tutmaq, yaxud müəyyən fəaliyyət növləri ilə məşğul olmaq Azərbaycan Respublikasının vətəndaşlığı ilə şərtləndirildiyi hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər belə vəzifələr tuta və belə fəaliyyətlə məşğul ola bilməzlər.

76.6. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dini təbliğat aparması qadağandır.

M a d d ə 77. **Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerli şəraitə uyğunlaşdırılması**

77.1. Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerli şəraitə uyğunlaşdırılmasına dair tədbirlər onların öz arzusu ilə həyata keçirilir.

77.2. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerli şəraitə uyğunlaşdırılması üzrə tədbirlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən əlaqələndirilir.

77.3. Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerli şəraitə uyğunlaşdırılmasına dair tədbirləri müvafiq icra hakimiyyəti orqanları birgə həyata keçirirlər.

77.4. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerli şəraitə uyğunlaşdırılması işinə beynəlxalq və qeyri-hökumət təşkilatları cəlb edilə bilər.

77.5. Azərbaycan Respublikasında yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri ilə bağlı qanunvericiliyin öyrənilməsi üçün müvafiq icra hakimiyyəti orqanının təlim-tədris mərkəzinə müraciət edə bilərlər.

## VI BÖLMƏ

## YEKUN MÜDDƏALAR

### *FƏSİL 13*

### ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN AZƏRBAYCAN RESPUBLİKASININ HÜDUDLARINDAN KƏNARA ÇIXARILMASI

M a d d ə 78. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmasının əsasları**

78.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı hallarda Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıla bilərlər:

78.1.1. cinayət törədildiyinə görə Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzası təyin edildikdə;

78.1.2. inzibati xəta törədildiyinə görə Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma inzibati tənbeh tədbiri tətbiq edildikdə;

78.1.3. bu Məcəllənin 79-cu maddəsinə uyğun olaraq əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması haqqında qərar (bundan sonra "kənara çıxarma haqqında qərar") qəbul edildikdə.

78.2. Cinayət törətdiyinə görə məhkum olunmuş əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma cəzası Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə müəyyən edilmiş hallarda tətbiq edilir və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilmiş qaydada icra edilir. Həmin şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmasından irəli gələn digər məsələlər bu Məcəllə ilə həll edilir.

78.3. İnzibati xəta törətmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılır. Həmin şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmasından irəli gələn digər məsələlər bu Məcəllə ilə həll edilir.

78.4. Kənara çıxarma haqqında qərar bu Məcəllə ilə müəyyən edilmiş qaydada qəbul və icra edilir.

M a d d ə 79. **Kənara çıxarma haqqında qərar**

79.1. Müvafiq icra hakimiyyəti orqanı aşağıda göstərilən hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində kənara çıxarma haqqında qərar qəbul edir:

79.1.1. vizası və ya müvəqqəti olma müddətinin uzadılması barədə qərarı, yaxud müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi ləğv edildikdə;

79.1.2. Azərbaycan Respublikası ərazisində olması arzuolunmaz hesab edildikdə;

79.1.3. cəza çəkməkdən azad edilmiş əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında yaşamaları üçün bu Məcəllənin 45-ci maddəsində müəyyən edilmiş əsaslar olmadıqda;

*79.1.4. qaçqın statusu verilməsindən imtina edildikdə.*[47]

79.2. Kənara çıxarma haqqında qərarla həmçinin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin 5 ilədək müddətə ölkə ərazisinə gəlməsinə məhdudiyyət qoyulur. *Bu Məcəllənin 79.1.1-ci maddəsində nəzərdə tutulmuş sənədlərin ləğv edilməsinə səbəb olmuş əsaslar aradan qalxdıqda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisinə gəlməsinə qoyulmuş məhdudiyyət götürülür.* [48]

79.3. Qaçqın statusu verilmiş, habelə Azərbaycan Respublikası tərəfindən siyasi sığınacaq verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində kənara çıxarma haqqında qərar qəbul edilmir.

79.4. İnsan alverindən zərər çəkmiş hesab olunan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində 1 il müddətində, cinayət təqibi orqanlarına yardım göstərən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində isə cinayət təqibi başa çatanadək kənara çıxarma haqqında qərar qəbul edilmir. İnsan alverinin qurbanı olan uşaqlar barəsində kənara çıxarma haqqında qərar qəbul edilmir.

79.5. Kənara çıxarma haqqında qərar əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə təqdim edildiyi vaxtdan həmin şəxslərin üzərinə aşağıdakı müddətlərdə ölkəni tərk etmək öhdəliyi qoyur:

79.5.1. cəza çəkməkdən azad edilmiş, vizası və ya müvəqqəti olma müddətinin uzadılması barədə qərarı ləğv edilmiş, habelə Azərbaycan Respublikasının ərazisində olması arzuolunmaz hesab edilmiş şəxslər – 48 saat ərzində;

79.5.2. müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi ləğv edilmiş, *habelə qaçqın statusu verilməsindən imtina edilmiş* şəxslər – 10 gün ərzində.[49]

79.6. Kənara çıxarma haqqında qərarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması əsaslandırılmalıdır.

79.7. Barəsində kənara çıxarma haqqında qərar qəbul olunmuş şəxs həmin qərarla tanış edilməli və qərarın bir nüsxəsi ona təqdim olunmalıdır. Əgər həmin şəxs Azərbaycan dilini bilmirsə, bu prosesdə tərcüməçinin iştirakı təmin olunmalıdır.

79.8. Kənara çıxarma haqqında qərardan məhkəməyə şikayət verilə bilər. Şikayətin verilməsi kənara çıxarma haqqında qərarın icrasını dayandırmır.

79.9. Kənara çıxarma haqqında qərar müvafiq icra hakimiyyəti orqanı tərəfindən icra edilir.

M a d d ə 80. **Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmasının ümumi qaydaları**

80.1. Bu Məcəllənin 78.1-ci maddəsində nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması qərara alınmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar və Cəzaların İcrası məcəllələrində, habelə bu Məcəllənin 79.5-ci maddəsində müəyyən olunmuş müddətlərdə Azərbaycan Respublikasının ərazisini tərk etməlidirlər. Onların Azərbaycan Respublikasının ərazisini həmin müddət ərzində tərk etməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təmin edilir.

*80.2. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisini tərk etməkdən boyun qaçırdıqda və ya belə boyun qaçırmanı ehtimal etməyə kifayət qədər əsaslar olduqda, onlar müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məhkəmənin qərarı ilə bu Məcəllədə müəyyən olunmuş qaydada və müddətdə müvafiq icra hakimiyyəti orqanının qanunsuz miqrantların saxlanılması mərkəzlərinə yerləşdirilirlər.*

*80.3. İcazəsiz yaşayan şəxslərin readmissiyası haqqında Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq ölkə hüdudlarından kənara çıxarılmalı olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məhkəmənin qərarı ilə bu Məcəllədə müəyyən olunmuş qaydada və müddətdə müvafiq icra hakimiyyəti orqanının qanunsuz miqrantların saxlanılması mərkəzlərinə yerləşdirilirlər.*[50]

80.4. Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma ilə bağlı sənədləşmə yubandıqda və ya çıxarılma haqqında qərarın vaxtında icrasına mane olan digər üzrlü səbəb olduqda, müvafiq icra hakimiyyəti orqanının yerləşdiyi yer üzrə birinci instansiya məhkəməsi həmin orqanın əsaslandırılmış müraciəti əsasında çıxarılma müddətinin uzadılması məsələsinə baxır.

80.5. Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması qərara alınmış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin şəxsiyyəti haqqında məlumatların dəqiqləşdirilməsi zəruri olduqda, müvafiq informasiya sistemləri vasitəsi ilə sorğular verilir və zəruri məlumatlar alınır.

80.6. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin şəxsiyyəti təsdiq edən sənədləri olmadıqda (itirildikdə, gizlədildikdə və s.), müvafiq icra hakimiyyəti orqanı ilə bu Məcəllənin 81.1-ci maddəsində göstərilən istiqamətlər üzrə xarici ölkələrin səlahiyyətli dövlət qurumları arasında müvafiq razılaşma olduğu təqdirdə birbaşa, bütün digər hallarda isə müvafiq icra hakimiyyəti orqanı vasitəsi ilə müraciət olunaraq, müvafiq sənədləşmə işləri aparılır və onların şəxsiyyətinin müəyyən edilməsi istiqamətində tədbirlər görülür.

*80.6-1. Sərhədkeçmə sənədləri olmayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş hallarda, habelə*

*həmin şəxslər üçün mənşə ölkələrindən sərhədkeçmə sənədləri əldə etmək mümkün olmadığı hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən səyahət sənədi verilir.*[51]

80.7. Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərdən biometrik identifikasiya tələblərinə uyğun olaraq əl-barmaq izləri götürülür.

80.8. Əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən əvvəlcədən müvafiq icra hakimiyyəti orqanına yazılı məlumatlar göndərilir. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılarkən, Azərbaycan Respublikasının sərhəd nəzarət məntəqələrinədək müvafiq icra hakimiyyəti orqanının əməkdaşları tərəfindən müşayiət olunur və dövlət sərhədinin buraxılış məntəqələrində müvafiq icra hakimiyyəti orqanının əməkdaşlarına təhvil verilir.

80.9. Azərbaycan Respublikasının ərazisindən çıxarılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin çıxarılmasına görə xərclər onların öz üzərinə düşür. Bu şəxslərin çıxarılması üçün onların vəsaiti olmadıqda, belə xərclərin ödənilməsi onları qəbul edən şəxslərin, idarə, müəssisə və təşkilatların, qəbul edən tərəf olmadıqda isə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının üzərinə düşür.

80.10. Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər haqqında məlumatlar "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edilir.

80.11. Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması Vahid Miqrasiya Məlumat Sistemi vasitəsi ilə həyata keçirilir.

M a d d ə 81. **Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılma istiqamətləri**

81.1. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması aşağıdakı istiqamətlərdə həyata keçirilir:

81.1.1. əcnəbi – vətəndaşı olduğu ölkəyə, bu mümkün olmadığı halda isə Azərbaycan Respublikasına birbaşa gəldiyi ölkəyə;

81.1.2. vətəndaşlığı olmayan şəxs – bundan əvvəl daimi yaşadığı ölkəyə, Azərbaycan Respublikasına birbaşa gəldiyi ölkəyə, onu qəbul etmək istəyi olan və bu barədə vəsatət qaldıran ölkəyə;

81.1.3. ikili vətəndaşlığı olan şəxs – daimi yaşadığı və ya daha sıx əlaqəli olduğu ölkəyə.

81.2. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən çıxarılma barədə yuxarıda qeyd olunan istiqamətlərə müvafiq icra hakimiyyəti orqanı vasitəsi ilə məlumat verilir.

## *FƏSİL 14*[52]

## *ƏCNƏBİLƏRİN VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏRİN QANUNSUZ MİQRANTLARIN SAXLANILMASI MƏRKƏZLƏRİNDƏ YERLƏŞDİRİLMƏSİ VƏ SAXLANILMASI QAYDASI*

*M a d d ə 82.* ***Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qanunsuz miqrantların saxlanılması mərkəzlərində yerləşdirilməsi üçün əsaslar və müddətlər***

*82.1. Aşağıdakı hallarda və müddətlərdə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunsuz miqrantların saxlanılması mərkəzlərində (bundan sonra - Mərkəz) könüllü yerləşdirilirlər:*

*82.1.1. şəxs (onunla birlikdə gələn ailə üzvləri) qaçqın statusu verilməsi barədə vəsatətlə müraciət etdikdə - qaçqın statusu verilməsi məsələsi həll edilənədək;*

*82.1.2. şəxs qaçqın statusu aldıqda - iş və ya yaşayış yeri əldə edənədək, lakin 3 aydan artıq olmayan müddətə;*

*82.1.3. şəxs Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarıldıqda - çıxarılma üçün Azərbaycan Respublikasının İnzibati Xətalar və Cəzaların İcrası məcəllələrində, habelə bu Məcəllənin 79.5-ci maddəsində nəzərdə tutulmuş müddət ərzində.*

*82.2. Aşağıdakı hallarda və müddətlərdə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Mərkəzdə məcburi yerləşdirilirlər:*

*82.2.1. müvafiq icra hakimiyyəti orqanının inzibati qaydada tutma barədə qərarı olduqda - 24 saatadək;*

*82.2.2. məhkəmənin inzibati qaydada tutma barədə qərarı olduqda – üç günədək;*

*82.2.3. bu Məcəllənin 80.2-ci və 80.3-cü maddələrində nəzərdə tutulmuş hallarda məhkəmənin müvafiq qərarı olduqda - qərarda göstərilən, lakin 6 aydan artıq olmayan müddətə.*

*82.3. Bu Məcəllənin 82.1.3-cü maddəsində nəzərdə tutulan hallar Azərbaycan Respublikasının ərazisində yaşayış yeri və ya özünün və ailə üzvlərinin minimal tələbatını ödəməyə vəsaiti olmayan şəxslərə tətbiq edilir.*

*M a d d ə 83.* ***Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Mərkəzdə yerləşdirilməsi proseduru***

*83.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Mərkəzdə könüllü yerləşdirilmələri üçün ərizə ilə müvafiq icra hakimiyyəti orqanına müraciət edirlər. Ərizəyə şəxsiyyəti təsdiq edən sənəd (mövcud olduqda) əlavə olunur.*

*83.2. Müvafiq icra hakimiyyəti orqanı ərizəyə baxaraq, şəxsin Mərkəzdə yerləşdirilməsi və ya bundan imtina edilməsi barədə qərar qəbul edir.*

*83.3. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Mərkəzdə məcburi yerləşdirilməsi üçün tutma barədə müvafiq icra hakimiyyəti orqanının qərarı və ya məhkəmənin müvafiq qərarı tələb olunur.*

*M a d d ə 84.* ***Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Mərkəzdə saxlanılmasının xüsusiyyətləri***

*84.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Mərkəzdə daxili intizam qaydalarında nəzərdə tutulmuş tələblər nəzərə alınmaqla 2, 6 və daha çox nəfərlik xüsusi yaşayış otaqlarında saxlanılırlar.*

*84.2. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər yaşayış otaqlarında bir ailəyə mənsub olmaları, yaşı, cinsi, məhkumluğu, səhhəti nəzərə alınmaqla saxlanılırlar.*

*84.3. Aşağıdakı əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Mərkəzdə ayrı saxlanılırlar:*

*84.3.1. məcburi saxlanılanlar könüllü saxlanılanlardan;*

*84.3.2. qadınlar kişilərdən (ailə üzvləri istisna olmaqla);*

*84.3.3. yetkinlik yaşına çatmayanlar yetkinlik yaşına çatanlardan (ailə üzvləri istisna olmaqla);*

*84.3.4. Mərkəzdə saxlanılan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onların həyat və ya sağlamlığına təhlükə törədən Mərkəzdə saxlanılan digər əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən (Mərkəzin rəisinin qərarı ilə).*

*84.4. Qadınlar kişi cinsindən olan 12 yaşınadək uşaqlarını öz yanlarında saxlaya bilərlər.*

*84.5. Hamilə və ya yanında uşağı olan qadınlar, yetkinlik yaşına çatmayanlar, habelə tibbi nəzarətə ehtiyacı olan şəxslər yaxşılaşdırılmış maddi-məişət şəraiti, xüsusi tibbi yardım və xüsusi yemək normaları ilə təmin edilirlər.*

*M a d d ə 85.* ***Mərkəzdə rejim***

*85.1. Mərkəzdə oraya yerləşdirilən şəxslərin bu Məcəllədə və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında nəzərdə tutulmuş hüquqlarının və qanuni mənafelərinin qorunmasına, onların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə və saxlanılması şəraitinə yönəldilmiş qaydaları təmin edən rejim müəyyən edilir.*

*85.2. Mərkəzdə rejimi təmin etmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Mərkəzin daxili intizam qaydaları (bundan sonra – daxili intizam qaydaları) təsdiq edilir.*

*85.3. Mərkəzdə rejim Mərkəzin rəisi və işçiləri tərəfindən təmin edilir.*

*85.4. Qadağan olunmuş əşyaların siyahısı, həmin əşyaların Mərkəzdə saxlanılan şəxslərdə aşkar edildiyi təqdirdə müvafiq tədbirlərin görülməsi və onların məhv edilməsi halları daxili intizam qaydaları ilə müəyyən olunur.*

*85.5. Şəxs Mərkəzə yerləşdirilərkən Mərkəzin işçiləri tərəfindən bu Məcəllənin müddəaları və daxili intizam qaydaları ilə tanış edilməli və bütün tələblər onlara izah olunmalıdır.*

*85.6. Qadağan olunmuş əşyaların hazırlanmasının, saxlanılmasının, gəzdirilməsinin, daşınmasının və ya istifadəsinin tənbeh tədbirlərinin tətbiqinə səbəb olması barədə Mərkəzdə saxlanılan şəxsə məlumat verilir və ondan yazılı iltizam alınır.*

*M a d d ə 86.* ***Daxili intizam qaydaları***

*86.0. Daxili intizam qaydaları ilə aşağıdakılar müəyyən edilir:*

*86.0.1. şəxsin Mərkəzə qəbul edilərək yerləşdirilməsi, onun qeydiyyatının və şəxsi axtarışının aparılması, əşyalarının yoxlanılması, tibbi müayinədən keçirilməsi və Mərkəzdən azad edilməsi (və ya buraxılması);*

*86.0.2. şəxsin Mərkəzdə saxlanılması şəraiti və şərtləri, mühafizəsi və müşayiəti, o cümlədən bir Mərkəzdən digər Mərkəzə köçürülməsi;*

*86.0.3. Mərkəzdə saxlanılan şəxsin daktiloskopik qeydiyyatının aparılması;*

*86.0.4. bağlamaların, sovqatların və banderolların Mərkəzə gətirilməsi və onların qəbulu, o cümlədən Mərkəzdə saxlanılan şəxsin şəxsi hesabları vasitəsilə pul baratları alması və ya göndərməsi;*

*86.0.5. şəxsin Mərkəzə məcburi yerləşdirilməsindən dərhal sonra yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla bu barədə məlumat verməsi;*

*86.0.6. şəxsin öz dövlətinin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyi və ya konsulluğu ilə, yaxud ona himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla əlaqə yaratması;*

*86.0.7. Mərkəzdə saxlanılan şəxsin ərzaq məhsulları və ən zəruri malları əldə etməsi, yazışması, telefon əlaqəsindən istifadə etməsi;*

*86.0.8. Mərkəzdə məcburi yerləşdirilən şəxsin gəzintiyə çıxarılması;*

*86.0.9. Mərkəzə giriş və çıxışın tənzimlənməsi;*

*86.0.10. Mərkəzdə saxlanılan şəxsin idmanla məşğul olması, stolüstü oyunlar oynaması və televiziya verilişlərinə baxması;*

*86.0.11. Mərkəzdə saxlanılan şəxsin müdafiəçisi, qanuni nümayəndəsi, qohumları, hüquqi yardım göstərən və ya əlaqələri onun üçün maraq doğuran digər şəxslərlə görüşlərinin təmin edilməsi;*

*86.0.12. şəxsin Mərkəzin rəisi tərəfindən qəbul edilməsi;*

*86.0.13. Mərkəzdə saxlanılan şəxs tərəfindən dini ayinlərin yerinə yetirilməsi;*

*86.0.14. Mərkəzdə saxlanılan şəxsin yemək və maddi-məişət təminatı və normaları;*

*86.0.15. Mərkəzdə saxlanılan şəxs tərəfindən təkliflərin, şikayətlərin və ərizələrin göndərilməsi;*

*86.0.16. Mərkəzdə saxlanılan şəxsə tibbi və psixoloji yardım göstərilməsi, habelə onun tibbi-sanitariya təminatı, tibbi-müayinəsi, tibb müəssisələrində yerləşdirilməsi və ya saxlanılması;*

*86.0.17. Mərkəzdə saxlanılan şəxsin mülki-hüquq, ailə-hüquq münasibətlərində iştirakı və notarius xidmətlərindən istifadə etməsi;*

*86.0.18. Mərkəzdə saxlanılan zaman vəfat etmiş şəxsin meyitinin verilməsi;*

*86.0.19. Mərkəzdə rejimin təmin edilməsi ilə əlaqədar digər məsələlər.*

*M a d d ə 87.* ***Mərkəzdə məcburi yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları***

*87.1. Mərkəzdə məcburi yerləşdirilən şəxs aşağıdakı hüquqlara malikdir:*

*87.1.1. Mərkəzə gətirildikdən dərhal sonra yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla bu barədə məlumat vermək imkanı ilə təmin olunmaq;*

*87.1.2. şəxsi təhlükəsizliyi təmin edilməklə yerləşdirilmək;*

*87.1.3. öz hüquq və vəzifələri və daxili intizam qaydaları ilə yazılı şəkildə ona aydın olan dildə tanış olmaq, bu barədə yazılı məlumatı özündə saxlamaq;*

*87.1.4. işgəncəyə, qeyri-insani və ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq;*

*87.1.5. müdafiəçi, qanuni nümayəndə, qohumlar, hüquqi yardım göstərən və ya əlaqələri onun üçün maraq doğuran digər şəxslərlə görüşmək;*

*87.1.6. öz dövlətinin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyi və ya konsulluğu ilə, yaxud ona himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilatlarla təxirə salınmadan əlaqəyə girmək;*

*87.1.7. pulsuz yeməklə, maddi-məişət və tibbi-sanitariya xidmətləri ilə təmin olunmaq;*

*87.1.8. Mərkəzin kitabxanasından istifadə etməklə, ədəbiyyat, qəzet və ya jurnal götürmək, həmçinin öz vəsaiti hesabına yazı ləvazimatı, ədəbiyyat, qəzet və ya jurnal əldə etmək;*

*87.1.9. dini ayinləri yerinə yetirmək, dini ləvazimatdan və ədəbiyyatdan istifadə etmək;*

*87.1.10. mülki-hüquq, ailə-hüquq münasibətlərində iştirak etmək, notariusun xidmətlərindən istifadə etmək;*

*87.1.11. etik davranışa uyğun rəftar olunmaq;*

*87.1.12. hüquqazidd məqsədlər üçün istifadə edilə bilən və ya dövlət sirrini və qanunla qorunan digər sirləri özündə əks etdirən sənədlər və yazılar istisna olmaqla, barəsində aparılan işin icraatı ilə tanış olmaq, öz hüquqlarının və qanuni mənafelərinin həyata keçirilməsi ilə bağlı sənədləri, yaxud əqli fəaliyyətinin nəticəsi olan yazıları və ya onların surətlərini, o cümlədən təklif, ərizə və şikayətlərinə verilən cavabların surətlərini özündə saxlamaq;*

*87.1.13. Mərkəzdə saxlanılmasının qanuniliyi, əsaslılığı və ya hüquqlarının və qanuni mənafelərinin pozulması məsələləri ilə bağlı təklif, ərizə və şikayətlərlə müraciət etmək;*

*87.1.14. idmanla məşğul olmaq və stolüstü oyunlar oynamaq;*

*87.1.15. şəxsi əşyalardan istifadə etmək;*

*87.1.16. öz paltar və ayaqqabısından istifadə etmək, münasib paltarı olmadıqda iqlimə uyğun paltarla təmin edilmək;*

*87.1.17. psixoloji yardım almaq;*

*87.1.18. öz vəsaiti hesabına qəzet və jurnallara abunə yazılmaq;*

*87.1.19. şəxsi hesabları vasitəsilə pul baratları almaq və yaxın qohumlarına pul baratları göndərmək;*

*87.1.20. telefon əlaqəsindən istifadə etmək;*

*87.1.21. televiziya verilişlərinə baxmaq;*

*87.1.22. öz vəsaiti hesabına Mərkəzin işçiləri vasitəsilə ticarət şəbəkəsindən ərzaq məhsulları və ən zəruri mallar əldə etmək;*

*87.1.23. gündəlik gəzintiyə çıxarılmaq.*

*87.2. Mərkəzdə məcburi yerləşdirilən şəxsin bu Məcəllənin 87.1-ci maddəsində sadalanan hüquqları "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan minimal təminatlardan az olmamaqla daxili intizam qaydaları ilə təmin edilir.*

*M a d d ə 88.* ***Mərkəzdə könüllü yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları***

*88.0. Mərkəzdə könüllü yerləşdirilən şəxs bu Məcəllənin 87.1.2-ci - 87.1.21-ci maddələrində göstərilən hüquqlardan əlavə, aşağıdakı hüquqlara malikdir:*

*88.0.1. Mərkəzi tərk etmək və geri qayıtmaq;*

*88.0.2. Mərkəzin ərazisində (xidməti istifadə üçün nəzərdə tutulan ərazilər istisna olmaqla) sərbəst hərəkət etmək;*

*88.0.3. öz vəsaiti hesabına müstəqil formada ticarət şəbəkəsindən ərzaq məhsulları və ən zəruri mallar əldə etmək.*

*M a d d ə 89.* ***Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin vəzifələri***

*89.0. Mərkəzdə saxlanılan şəxsin əsas vəzifələri aşağıdakılardır:*

*89.0.1. bu Məcəllə ilə və daxili intizam qaydaları ilə müəyyən edilmiş qaydalara riayət etmək;*

*89.0.2. Mərkəzin rəisinin qanuni tələblərinə əməl etmək;*

*89.0.3. sanitariya-gigiyena qaydalarına əməl etmək;*

*89.0.4. yanğın təhlükəsizliyi qaydalarına əməl etmək;*

*89.0.5. Mərkəzin əmlakına qayğı ilə yanaşmaq;*

*89.0.6. saxlanıldığı otağı növbəlilik qaydasında təmizləmək (süpürmək, yumaq və silmək);*

*89.0.7. Mərkəzin işçiləri ilə, habelə Mərkəzdə saxlanılan digər şəxslərlə nəzakətlə davranmaq;*

*89.0.8. Mərkəzin işçilərinin xidməti vəzifələrinin icrasına mane olmamaq;*

*89.0.9. özünün və ya digər şəxslərin həyat və sağlamlığı üçün təhlükə yaradan hərəkətlərə yol verməmək.*

*M a d d ə 90.* ***Mərkəzdə tətbiq edilən tənbeh tədbirləri***

*90.1. Daxili intizam qaydalarını pozan Mərkəzdə məcburi yerləşdirilən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində aşağıdakı tənbeh tədbirləri tətbiq edilir:*

*90.1.1. gəzintiyə çıxarılmaq hüququnun məhdudlaşdırılması;*

*90.1.2. telefon əlaqəsindən istifadə etmək hüququnun məhdudlaşdırılması;*

*90.1.3. televiziya verilişlərinə baxmaq hüququnun məhdudlaşdırılması;*

*90.1.4. idmanla məşğul olmaq və stolüstü oyunlar oynamaq hüququnun məhdudlaşdırılması;*

*90.1.5. yaxın qohumları ilə görüşmək hüququnun məhdudlaşdırılması;*

*90.1.6. bir nəfərlik xüsusi otaqda saxlanılması.*

*90.2. Daxili intizam qaydalarını pozan Mərkəzdə könüllü yerləşdirilən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində aşağıdakı tənbeh tədbirləri tətbiq edilir:*

*90.2.1. bu Məcəllənin 90.1.2-ci - 90.1.4-cü və 90.1.6-cı maddələrində nəzərdə tutulan tənbeh tədbirləri;*

*90.2.2. Mərkəzdən xaric olunma.*

*90.3. Tənbeh tədbiri Mərkəz rəisinin əsaslandırılmış qərarı ilə tətbiq edilir. Qərarın surəti əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə dərhal təqdim edilir və şikayət etmək hüququ ona izah olunur. Bu barədə müvafiq qeydiyyat aparılır.*

*90.4. Bir pozuntuya görə yalnız bir tənbeh tədbiri tətbiq edilir.*

*90.5. Tənbeh tədbiri Mərkəzdə müəyyən edilmiş qaydaların pozulması halları və saxlanılan şəxsin davranışı nəzərə alınmaqla tətbiq edilir. Tənbeh tədbiri pozuntunun aşkar edildiyi gündən ən geci 5 gün keçənədək, pozuntu ilə əlaqədar yoxlama aparıldıqda isə yoxlama başa çatdıqda, lakin pozuntu törədildiyi gündən ən geci 1 ay keçənədək tətbiq edilir.*

*90.6. Daxili intizam qaydalarını pozan şəxsin aşağıdakı hüquqları vardır:*

*90.6.1. hansı əməlinin daxili intizam qaydalarının pozulması hesab olunduğu barədə dərhal məlumat almaq;*

*90.6.2. şəxsən və ya zəruri hesab etdiyi hallarda müdafiəçi vasitəsilə müdafiə olunmaq;*

*90.6.3. tərcüməçinin köməyindən pulsuz istifadə etmək;*

*90.6.4. şahidlərin izahatının alınmasını tələb etmək və onların izahatının alınmasında iştirak etmək.*

*90.7. Tənbeh tədbiri verilməzdən əvvəl Mərkəzdə saxlanılan əcnəbidən və ya vətəndaşlığı olmayan şəxsdən izahat alınır. Həmin şəxs izahat verməkdən imtina etdikdə, bu barədə imtinanın səbəbləri göstərilməklə akt tərtib edilir.*

*90.8. Şəxs tənbeh tədbirindən yuxarı vəzifəli şəxsə və ya məhkəməyə şikayət verə bilər. Bu Məcəllənin 90.9-cu maddəsinə əsasən tənbeh tədbirinin tətbiqinin dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, şikayətin verilməsi tənbeh tədbirinin tətbiqini dayandırmır.*[53]

*90.9. Şikayət verildiyi hallarda, barəsində şikayət olunan tənbeh tədbirinin tətbiqinin dayandırılması ilə bağlı məsələyə, maraqlı şəxsin ərizəsinə əsasən və ya xidməti vəzifəsinə görə şikayət instansiyasının öz təşəbbüsü ilə, şikayət instansiyası tərəfindən dərhal baxılır və bu barədə müvafiq qərar qəbul edilir.*[54]

### *M a d d ə 91.* ***Mərkəzdə saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mühafizəsi və onların üzərində nəzarət***

*91.1. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Mərkəzdə mühafizə olunur və nəzarət altında saxlanılırlar. Mərkəzdə saxlanılan şəxslər Mərkəzin ərazisində işçilərin nəzarəti ilə hərəkət edirlər.*

*91.2. Nəzarət həyata keçirilərkən foto-video və ya digər texniki vasitələrdən istifadə edilə bilər.*

*91.3. Mərkəzdə saxlanılan şəxslərin daktiloskopik qeydiyyatı aparılır, fotoşəkilləri çəkilir, barəsində şəxsi axtarış tətbiq edilir, saxlanıldığı yerdə axtarış aparılır, onların əşyaları, bağlamaları, sovqatları və banderolları yoxlanılır.*

*91.4. Mərkəzdə məcburi yerləşdirilən şəxslər barəsində sanitariya-gigiyena tədbirləri və ya onların üzərində şəxsi axtarış Mərkəzin eyni cinsdən olan işçiləri tərəfindən həyata keçirilir.*

*91.5. Mərkəzdə saxlanılan şəxslərdə qadağan olunmuş əşyalar aşkar edildikdə, həmin əşyalar müvafiq protokol tərtib edilməklə götürülür və anbara təhvil verilir, yaxud Mərkəz rəisinin əsaslandırılmış qərarına əsasən məhv edilir. Bununla əlaqədar əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə bu Məcəllənin 90.1-ci və 90.2-ci maddələrində nəzərdə tutulan tənbeh tədbirlərindən biri tətbiq edilir.*

*91.6. Mərkəzdə saxlanılan şəxs özü ilə hər hansı dərman preparatları gətirdiyi halda, onlardan istifadə olunması barədə qərarı həkim qəbul edir.*

*91.7. Mərkəzin ərazisinə giriş və ya bu ərazidən çıxış zamanı Mərkəzin işçiləri tərəfindən gələn və gedən şəxslərin əşyaları, geyimi, o cümlədən daxil olan və çıxan nəqliyyat vasitələri yoxlanılır və qadağan olunmuş əşyalar aşkar edildikdə götürülür. Mərkəzə gələn şəxslərdə və ya nəqliyyat vasitələrində qadağan olunmuş əşyalar aşkar edildikdə, qanunla bu əmələ görə məsuliyyət nəzərdə tutulmamışdırsa, belə əşyalar onları gətirmiş şəxslərə qaytarılır.*

*91.8. Mərkəzdə saxlanılan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər bir Mərkəzdən başqa Mərkəzə keçirildikdə, həmin şəxslərdən götürülmüş qadağan olunmuş əşyalar siyahıya alınaraq, onları qəbul edən Mərkəzə göndərilir.*

### *M a d d ə 92.* ***Mərkəzin işçilərinin vəzifələri***

*92.1. Mərkəzin işçilərinin aşağıdakı vəzifələri vardır:*

*92.1.1. Mərkəzə gəlmiş və ya gətirilmiş şəxsi müvafiq qaydada qəbul etmək;*

*92.1.2. Mərkəzdə məcburi yerləşdirilən şəxsə Mərkəzdə saxlanıldığı barədə yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla və ya digər vasitələrlə məlumat vermək imkanını yaratmaq (Mərkəzin işçiləri Mərkəzdə məcburi yerləşdirilən şəxsin qocalığı, yetkinlik yaşına çatmaması, sağlamlıq və psixoloji vəziyyəti ilə bağlı hallar istisna olmaqla, belə məlumatları öz təşəbbüsləri ilə verə bilməzlər);*

*92.1.3. Mərkəzdə yerləşdirilən şəxsin Mərkəzdə saxlanıldığı (tutularaq gətirilən şəxslər barədə isə harada tutulduğu) barədə onun vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyinə və ya konsulluğuna dərhal məlumat vermək və belə məlumatın verildiyini qeydə almaq;*

*92.1.4. Mərkəzə qəbul edilən şəxsin təxirə salınmadan tibbi müayinədən keçirilməsini təmin etmək;*

*92.1.5. Mərkəzdə saxlanılan şəxsi hüquq və vəzifələri, daxili intizam qaydaları ilə tanış etmək və ona bu barədə izah vermək;*

*92.1.6. Mərkəzdə saxlanılan şəxsin müdafiəçisi, qanuni nümayəndəsi, qohumları ilə, habelə həmin şəxsə hüquqi yardım göstərən və ya əlaqələri onun üçün maraq doğuran digər şəxslərlə görüşlərini təşkil etmək;*

*92.1.7. Mərkəzdə saxlanılan şəxslərin təhlükəsizliyini təmin etmək;*

*92.1.8. Mərkəzdə saxlanılan şəxslərin təklif, şikayət və ərizələrini qeydiyyata almaq;*

*92.1.9. Mərkəzdə saxlanılan şəxslərin məktub, teleqram, təklif, ərizə və şikayətlərinin göndərilməsini təmin etmək;*

*92.1.10. cinayət prosesini həyata keçirən orqanın müraciətinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanına məlumat verməklə, Mərkəzdə saxlanılan şəxsin iştirakı ilə Mərkəzdə istintaq hərəkətlərinin, yaxud digər prosessual hərəkətlərin aparılmasına şərait yaratmaq;*

*92.1.11. Mərkəzdə saxlanılan şəxsləri müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən digər Mərkəzə köçürmək;*

*92.1.12. Mərkəzdə saxlanılan şəxsin telefonla danışmaq hüququnun təmin edilməsinə şərait yaratmaq;*

*92.1.13. Mərkəzdə saxlanılan şəxsin saxlanılma müddətinin başa çatmasına 1 iş günü qalmış müvafiq icra hakimiyyəti orqanına bu barədə məlumat vermək;*

*92.1.14. Mərkəzdə saxlanılan şəxsin notariusun xidmətlərindən istifadə etməsinə şərait yaratmaq.*

*92.2. Mərkəzin işçiləri şəxsin Mərkəzə qəbul olunmasından sonra keçirilmiş tibbi müayinəsinin nəticələrinin onun sağlamlığı barədə qeydə alınmış məlumatlarına əlavə olunmasını təmin etməlidirlər.*

### *M a d d ə 93.* ***Mərkəzdə fiziki qüvvənin və xüsusi vasitələrin tətbiqi***

*93.1. Hazırlanan və ya törədiləcək cinayətin və ya digər hüquqpozmaların qarşısının alınmasının, habelə Mərkəz işçilərinin qanuni tələblərinə müqavimətin aradan qaldırılmasının başqa üsullarla təmin edilməsi mümkün olmadıqda, fiziki qüvvə tətbiq edilə bilər.*

*93.2. Mərkəzdə xüsusi vasitələr aşağıdakı hallarda tətbiq edilə bilər:*

*93.2.1. Mərkəzin işçilərinə və ya digər şəxslərə Mərkəzdə saxlanılan şəxslər tərəfindən edilən hücumları dəf edərkən;*

*93.2.2. kütləvi iğtişaşların və ya Mərkəzdə saxlanılma rejiminin qrup halında pozulmasının qarşısını alarkən;*

*93.2.3. Mərkəz işçilərinin və ya Mərkəzdə rejimin təmin edilməsinə cəlb olunmuş müvafiq icra hakimiyyəti orqanı işçilərinin qanuni tələblərinə tabe olmayan və ya onlara fiziki müqavimət göstərən Mərkəzdə saxlanılan şəxslərin qanunsuz hərəkətlərinin qarşısını alarkən;*

*93.2.4. girov saxlanılan şəxsləri, zəbt olunmuş binaları, yerləri, qurğuları və nəqliyyat vasitələrini azad edərkən;*

*93.2.5. Mərkəzdə məcburi yerləşdirilən şəxslərin Mərkəzdən qaçması cəhdinin qarşısını alarkən;*

*93.2.6. Mərkəzdə saxlanılan şəxslərin özlərinə və ətrafdakılara zərər yetirmək cəhdlərinin qarşısını alarkən.*

*93.3. Fiziki qüvvə və xüsusi vasitələr tətbiq edilərkən, aşağıdakı şərtlərə riayət edilməlidir:*

*93.3.1. insana qarşı fiziki qüvvə, xüsusi vasitələr yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, bütün digər təsir imkanlarından istifadə lazımi nəticə vermədikdə, hüquq pozuntusunun ağırlıq dərəcəsindən və ya onu törədənin şəxsiyyətindən asılı olaraq tətbiq edilməlidir;*

*93.3.2. qrup halında basqın edildiyi, o cümlədən silahlı müqavimət göstərildiyi hallar istisna olmaqla, xüsusi vasitələr qadınlara, azyaşlılara, yanında azyaşlı uşaqlar olanlara, əlilliyi, yaxud digər fiziki və ya psixi qüsurları aşkar bilinən şəxslərə qarşı, habelə insanların toplaşdığı və ya kənar şəxslərin zərər çəkə biləcəyi yerlərdə tətbiq edilməməlidir;*

*93.3.3. xüsusi vasitələr yalnız real təhlükənin qarşısı alınarkən tətbiq edilə bilər;*

*93.3.4. fiziki qüvvənin, xüsusi vasitələrin tətbiqi yaranmış təhlükəyə mütənasib olmalıdır;*

*93.3.5. hüquq pozuntusunun xarakterindən və təhlükəlilik dərəcəsindən, eləcə də göstərilən müqavimətin gücündən asılı olaraq, vurulan zərərin minimal olmasına cəhd edilməlidir;*

*93.3.6. bədən xəsarəti alan şəxslərə ilkin tibbi yardımın göstərilməsi təmin edilməlidir.*

*93.4. Fiziki qüvvənin və xüsusi vasitələrin tətbiqi haqqında müvafiq qeydiyyat aparılır. Mərkəzin işçiləri tərəfindən fiziki qüvvə və ya xüsusi vasitə tətbiq edildiyi hər bir halda Mərkəzin rəisi bu barədə dərhal müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir.*

*93.5. Mərkəzin işçiləri tərəfindən fiziki qüvvənin, xüsusi vasitələrin tətbiq edildiyi hər bir halda müvafiq icra hakimiyyəti orqanı tərəfindən xidməti yoxlama aparılmalı və fiziki qüvvənin, xüsusi vasitənin tətbiqinin qanunauyğun olub-olmaması barədə müvafiq rəy hazırlanmalıdır.*

### *M a d d ə 94.* ***Mərkəzin fəaliyyətinə nəzarət***

*94.1. Mərkəzin fəaliyyətinə nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.*

*94.2. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) və Milli preventiv qrup üzvlərinin istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən Mərkəzə daxil olmaq, orada könüllü və ya məcburi yerləşdirilən əcnəbilərlə və ya vətəndaşlığı olmayan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya zəruri saydığı halda mütəxəssisin, yaxud tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək, onların həmin yerlərdə yerləşdirilməsinin və saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin əcnəbilərlə və ya vətəndaşlığı olmayan şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq, akt tərtib etmək, həyata keçirdikləri tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq, Mərkəzin rəisi tərəfindən təxirə salınmadan qəbul edilmək, Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) isə həmçinin Mərkəzə müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüquqları vardır.*

## *FƏSİL 15*

## MƏSULİYYƏT

M a d d ə 95. **Miqrasiya qanunvericiliyinin pozulmasına görə məsuliyyət**

95.1. Azərbaycan Respublikasına gəlməyin və Azərbaycan Respublikasından getməyin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olmasının, müvəqqəti və ya daimi yaşamasının və əmək fəaliyyəti ilə məşğul olmasının, habelə Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəldilməsinin bu Məcəllə ilə müəyyən edilmiş qaydalarını pozmuş fiziki və hüquqi şəxslər qanunla nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

95.2. Bu Məcəllənin tələblərini pozmuş dövlət orqanlarının vəzifəli şəxsləri qanunla nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

95.3. Əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisinə qanunsuz gəlməsinin, onların Azərbaycan Respublikasının ərazisində qanunsuz olmasının, yaşamasının, Azərbaycan Respublikasının ərazisindən qanunsuz olaraq tranzit keçməsinin, o cümlədən qanunsuz işləməsinin təşkil edilməsində təqsirkar şəxslər qanunla nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

95.4. Əvvəllər Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati və ya məcburi qaydada çıxarılmış və girişinə müəyyən müddətə məhdudiyyət qoyulmuş əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər həmin müddət ərzində bilərəkdən sənədlərində dəyişiklik edərək yenidən ölkəyə daxil olduqda, qanunla nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

95.5. İşə cəlb edilməsi məqsədi ilə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin pasportlarını və ya şəxsiyyəti təsdiq edən digər sənədlərini götürən, saxlayan və ya gizlədən şəxslər qanunla nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 17 oktyabr 2014-cü il tarixli **1071-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1351)**
2. 17 oktyabr 2014-cü il tarixli **1079-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 noyabr 2014-cü il, № 242; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1357)**
3. 16 dekabr 2014-cü il tarixli **1143-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 31 dekabr 2014-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1539)**
4. 24 fevral 2015-ci il tarixli **1207-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 mart 2015-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 259)**
5. 29 may 2015-ci il tarixli **1295-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 20 iyun 2015-ci il, № 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 689)**
6. 20 oktyabr 2015-ci il tarixli **1387-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 9 dekabr 2015-ci il, № 271, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1436)**
7. 1 fevral 2016-cı il tarixli **118-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 19 fevral 2016-cı il, № 38; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 02, II kitab, maddə 214)**
8. 6 may 2016-cı il tarixli **223-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 iyun 2016-cı il, № 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 970)**
9. 17 may 2016-cı il tarixli **244-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 iyun 2016-cı il, № 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 988)**
10. 14 iyun 2016-cı il tarixli **280-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 iyun 2016-cı il, № 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1008)**
11. 24 iyun 2016-cı il tarixli **299-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 21 iyul 2016-cı il, № 155, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 7, maddə 1246)**
12. 11 noyabr 2016-cı il tarixli **406-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 noyabr 2016-cı il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 11, maddə 1794)**
13. 30 iyun 2017-ci il tarixli **761-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 22 iyul 2017-ci il, № 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1312)**
14. 20 oktyabr 2017-ci il tarixli **810-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 5 noyabr 2017-ci il, № 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il,**

**№ 11, maddə 1963)**

15. 31 oktyabr 2017-ci il tarixli **852-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 dekabr 2017-ci il, № 269, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2218)**

16. 1 dekabr 2017-ci il tarixli **902-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 dekabr 2017-ci il, № 279)**

17. 29 dekabr 2017-ci il tarixli **965-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 12 yanvar 2018-ci il, № 7)**

18. 23 fevral 2018-ci il tarixli **1015-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 mart 2018-ci il, № 61)**

19. 1 may 2018-ci il tarixli **1097-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 iyun 2018-ci il, № 141)**

20. 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)**

## MƏCƏLLƏYƏ EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 17 oktyabr 2014-cü il tarixli **1071-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1351)** ilə 3.0.17-ci maddədə "**vətənə qayıdış şəhadətnaməsi,**" sözlərindən sonra "**Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən səyahət sənədi,**" sözləri əlavə edilmişdir.

[2] 31 oktyabr 2017-ci il tarixli **852-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 dekabr 2017-ci il, № 269, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2218)** ilə yeni məzmunda 9.3.4-1-ci maddə əlavə edilmişdir.

[3] 20 oktyabr 2015-ci il tarixli **1387-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 9 dekabr 2015-ci il, № 271, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1436)** ilə 9.3.6-cı maddədə "**məhkəmə qərarı**" sözləri "**məhkəmə qərarları, əmrləri və vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları**" sözləri ilə əvəz edilmişdir.

[4] 20 oktyabr 2015-ci il tarixli **1387-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 9 dekabr 2015-ci il, № 271, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1436)** ilə yeni məzmunda 9.3.6-1-ci maddə əlavə edilmişdir.

[5] 1 may 2018-ci il tarixli **1097-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 iyun 2018-ci il, № 141)** ilə yeni məzmunda 9.8-ci maddə əlavə edilmişdir.

[6] 17 oktyabr 2014-cü il tarixli **1079-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 noyabr 2014-cü il, № 242; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1357)** ilə 15.3-cü maddədə "**hallarda**" sözündən sonra "**, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda**" sözləri əlavə edilmişdir.

[7] 17 oktyabr 2014-cü il tarixli **1071-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1351)** ilə 15.6-cı maddə əlavə edilmişdir.

[8] 1 may 2018-ci il tarixli **1097-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 iyun 2018-ci il, № 141)** ilə yeni məzmunda 15.7-ci maddə əlavə edilmişdir.

[9] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə 16.1.8-ci maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~16.1.8. şəxs miqrasiya qanunvericiliyini pozduğuna görə son üç il ərzində iki dəfə və ya daha çox inzibati məsuliyyətə cəlb olunduqda.~~

[10] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə 16.2-ci maddədə "**16.1.6 - 16.1.8-ci**" sözləri "**16.1.6-cı və 16.1.7-ci**" sözləri ilə əvəz edilmişdir.

[11] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə yeni məzmunda 16.4-cü maddə əlavə edilmişdir.

[12] 31 oktyabr 2017-ci il tarixli **852-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 dekabr 2017-ci il, № 269, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab maddə 2218)** ilə yeni məzmunda 17.1.5-1-ci maddə əlavə edilmişdir.

[13] 20 oktyabr 2015-ci il tarixli **1387-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 9 dekabr 2015-ci il, № 271, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1436)** ilə 17.1.6-cı maddədə "**məhkəmə qərarı**" sözləri "**məhkəmə qərarları, əmrləri və vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları**" sözləri ilə əvəz edilmişdir.

[14] 20 oktyabr 2015-ci il tarixli **1387-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 9 dekabr 2015-ci il, № 271, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 12, maddə 1436)** ilə yeni məzmunda 17.1.6-1-ci maddə əlavə edilmişdir.

[15] 24 iyun 2016-cı il tarixli **299-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 21 iyul 2016-cı il, № 155, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 7, maddə 1246)** ilə 17.1.7-ci maddədən "**qanuni qüvvəyə minmiş**" sözləri çıxarılmışdır.

[16] 17 oktyabr 2014-cü il tarixli **1079-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 6 noyabr 2014-cü il, № 242; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1357)** ilə 21.1-ci və 21.2-ci maddələrdə "**3**" rəqəmi "**10**" rəqəmi ilə əvəz edilmişdir.

17 oktyabr 2014-cü il tarixli **1071-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1351)** ilə 21.1-ci maddədə "**alınmalıdırlar**" sözündən sonra "**(bu barədə ölkəyə daxil olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə dövlət sərhədinin buraxılış**

**məntəqələrində Azərbaycan, rus və ingilis dillərində olan müvafiq bildiriş verilir)**" sözləri əlavə edilmişdir.

29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə 21.1-ci və 21.2-ci maddələrdə "**10**" rəqəmləri "**15**" rəqəmləri ilə əvəz edilmişdir.

[17] 24 fevral 2015-ci il tarixli **1207-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 mart 2015-ci il, № 58, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 259)** ilə 21.2-ci maddəsində "**informasiya ehtiyatı, poçt,**" sözləri "**informasiya ehtiyatı,**" sözləri ilə əvəz edilmişdir.

[18] 1 dekabr 2017-ci il tarixli **902-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 dekabr 2017-ci il, № 279)** ilə 21.9-cu maddəyə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[19] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə 30.1-ci maddədə "**müvafiq icra hakimiyyəti orqanı tərəfindən rəsmiləşdirilmiş dəvətnaməsi**" sözləri "**vəsatəti**" sözü ilə əvəz edilmişdir.

[20] 14 iyun 2016-cı il tarixli **280-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 iyun 2016-cı il, № 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1008)** ilə 33.4-cü maddə ləğv edilmişdir.

[21] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə 36.1.6-cı maddədə "**, dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti (qeyri-dövlət təşkilatları üçün), dəvətin səbəbini təsdiqləyən sənəd (tranzit, turizm, rəsmi və şəxsi səfər vizaları üçün bu sənədlər tələb olunmur**)" sözləri "(**tranzit və turizm vizaları üçün bu sənəd tələb olunmur**)" sözləri ilə əvəz edilmişdir.

[22] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə yeni məzmunda 36.1.6-1-ci və 36.1.6-2-ci maddələr əlavə edilmişdir.

[23] 14 iyun 2016-cı il tarixli **280-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 iyun 2016-cı il, № 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1008)** ilə yeni məzmunda 37.12-ci maddə əlavə edilmişdir.

[24] 14 iyun 2016-cı il tarixli **280-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 iyun 2016-cı il, № 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 1008)** ilə 38-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 38. **Turistlərə verilən elektron vizalar**~~

~~38.1. Azərbaycan Respublikasına gələn turistlər turizm şirkətləri vasitəsi ilə elektron viza ala bilərlər.~~

~~38.2. Elektron viza almaq üçün əcnəbilər Azərbaycan Respublikasında fəaliyyət göstərən və müvafiq icra hakimiyyəti orqanında akkreditasiyadan keçmiş turizm şirkətlərinə birbaşa və ya yaşadıqları ölkələrdə həmin şirkətlərin tərəfdaşı olan turizm şirkətləri vasitəsi ilə müraciət edə bilərlər.~~

~~38.3. Elektron vizanın alınması üçün Azərbaycan Respublikasında akkreditasiyadan keçmiş turizm şirkəti müvafiq icra hakimiyyəti orqanının internet informasiya ehtiyatında yerləşdirilmiş elektron ərizə-anketi dolduraraq, şəxsin pasportunun, fotoşəkilinin və səfərin turizm məqsədi ilə həyata keçirildiyini~~

~~təsdiq edən sənədlərin (turizm vauçeri və ya turizm yollayışı, sərnişin bileti və mehmanxanada, kempinqdə, turist bazasında və ya digər bu kimi obyektlərdə yer sifariş edilməsini təsdiqləyən sənəd) skan olunmuş surətlərini əlavə edir. Sənədlər daxil olduqdan sonra onlara bu Məcəllənin 37-ci maddəsi ilə müəyyən edilmiş qaydada ən geci *5 iş günü* keçənədək baxılır və viza rəsmiləşdirilərək, elektron qaydada müraciət edən turizm şirkətinin elektron poçt ünvanına göndərilir. Viza verilməsindən imtina edildikdə, bu barədə əsaslandırılmış məlumat verilir.~~[24]

~~38.4. Elektron vizanın verilməsi üçün qanunla müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödənilir.~~

~~38.5. Çap olunmuş elektron viza pasporta yapışdırılmır və dövlət sərhədinin buraxılış məntəqəsindən keçərkən turist tərəfindən pasportla birgə təqdim olunur. Dövlət sərhədinin buraxılış məntəqəsindən keçərkən pasportda və vizada şəxsin Azərbaycan Respublikasının ərazisinə daxil olması və Azərbaycan Respublikasının ərazisini tərk etməsi barədə qeyd aparılır.~~

~~38.6. Elektron qaydada verilən viza blankının təsviri və nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.~~

~~38.7. *Turistlərə elektron viza almaq hüququnu əldə etmək üçün* Azərbaycan Respublikasında fəaliyyət göstərən turizm şirkətlərinin müvafiq icra hakimiyyəti orqanında akkreditasiyadan keçməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~[24]

[25] 29 dekabr 2017-ci il tarixli **965-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 12 yanvar 2018-ci il, № 7)** ilə 38.1-ci maddənin ikinci cümləsinə "**30 günədək**" sözlərindən sonra "**, çoxdəfəlik vizada isə 90 günədək**" sözləri əlavə edilmişdir.

[26] 11 noyabr 2016-cı il tarixli **406-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 noyabr 2016-cı il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 11, maddə 1794)** ilə 38.5-ci maddə ləğv edilmişdir.

[27] 11 noyabr 2016-cı il tarixli **406-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 noyabr 2016-cı il, № 257, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 11, maddə 1794)** ilə 38.6-cı və 38.7-ci maddələr yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~*38.6. Müvafiq icra hakimiyyəti orqanı müraciətin "ASAN Viza" sisteminə daxil olduğu vaxtdan ən geci 3 iş günü keçənədək məlumatları yoxlayır, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahıları üzrə yoxlama aparır, razılaşdırılma məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının rəyini alır.*~~

~~*38.7. Elektron vizanın verilməsi barədə müraciətə bu Məcəllənin 38.6-cı maddəsində nəzərdə tutulmuş müddətdə və qaydada baxılır və viza rəsmiləşdirilərək, "ASAN Viza" sistemi vasitəsilə müraciət etmiş şəxsin elektron poçt ünvanına göndərilir və ya viza verilməsindən imtina edildikdə, bu barədə məlumat verilir.*~~

30 iyun 2017-ci il tarixli **761-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 22 iyul 2017-ci il, № 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1312)** ilə 38.6-cı maddənin birinci cümləsində "**günü**" sözündən sonra "**, elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə isə ən geci 3 saat**" sözləri əlavə edilmişdir.

[28] 30 iyun 2017-ci il tarixli **761-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 22 iyul 2017-ci il, № 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1312)** ilə 38.8-ci maddənin birinci cümləsində "**və əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən çap edilərək Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqəsindən keçərkən pasportla birgə təqdim olunur**" sözləri "**, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqəsindən keçərkən çap edilmiş elektron vizanı və ya həmin vizanın məlumatlarını sərhədkeçmə sənədi ilə birgə təqdim edir**" sözləri ilə əvəz edilmişdir.

[29] 30 iyun 2017-ci il tarixli **761-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 22 iyul 2017-ci il, № 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1312)** ilə 38.11-ci maddə əlavə edilmişdir.

[30] 17 oktyabr 2014-cü il tarixli **1071-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1351)** ilə 41-ci maddəyə "**Qeyd**" hissəsi əlavə edilmişdir.

[31] 29 may 2015-ci il tarixli **1295-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 20 iyun 2015-ci il, № 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 689)** ilə 45.0.4-cü maddədə "**müdafiə**" sözü "**hərbi**" sözü ilə əvəz edilmişdir.

[32] 6 may 2016-cı il tarixli **223-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 iyun 2016-cı il, № 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 970)** ilə 45.0.4-1-ci maddə əlavə edilmişdir.

[33] 6 may 2016-cı il tarixli **223-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 iyun 2016-cı il, № 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 970)** ilə 45.0.6-1-ci maddə əlavə edilmişdir.

[34] 29 may 2015-ci il tarixli **1295-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 20 iyun 2015-ci il, № 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 689)** ilə 46.1.7-ci maddədə "**müdafiə**" sözü "**hərbi**" sözü ilə əvəz edilmişdir.

[35] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə yeni məzmunda 46.4-cü maddə əlavə edilmişdir.

[36] 17 oktyabr 2014-cü il tarixli **1071-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1351)** ilə 46-cı maddəyə "**Qeyd**" hissəsi əlavə edilmişdir.

[37] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə 50.0.12-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 50.0.13-cü maddə əlavə edilmişdir.

[38] 20 oktyabr 2017-ci il tarixli **810-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 5 noyabr 2017-ci il, № 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 11, maddə 1963)** ilə 53.1.4-cü, 53.1.5-ci, 53.1.8-ci və 65.0.5-ci maddələr ləğv edilmişdir.

[39] 17 oktyabr 2014-cü il tarixli **1071-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1351)** ilə 53-cü maddəyə "**Qeyd**" hissəsi əlavə edilmişdir.

[40] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə yeni məzmunda 54.11-1-ci maddə əlavə edilmişdir.

[41] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə 55.0.8-ci maddədə "**etibarən hər**" sözləri "**hesablanmaqla istənilən**" sözləri ilə əvəz edilmişdir.

[42] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə 55.0.13-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 55.0.14-cü maddə əlavə edilmişdir.

[43] 17 oktyabr 2014-cü il tarixli **1071-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1351)** ilə 64.0.6-1-ci maddə əlavə edilmişdir.

[44] 6 may 2016-cı il tarixli **223-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 iyun 2016-cı il, № 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 970)** ilə 64.0.8-1-ci maddə əlavə edilmişdir.

[45] 6 may 2016-cı il tarixli **223-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 4 iyun 2016-cı il, № 119, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 970)** ilə 64.0.13-1-ci maddə əlavə edilmişdir.

[46] 23 fevral 2018-ci il tarixli **1015-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 18 mart 2018-ci il, № 61)** ilə 67.4-cü maddədən "**, 65.0.5-ci**" sözləri çıxarılmışdır.

[47] 29 may 2015-ci il tarixli **1295-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 20 iyun 2015-ci il, № 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 689)** ilə 79.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 79.1.4-cü maddə əlavə edilmişdir.

[48] 29 iyun 2018-ci il tarixli **1218-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 14 iyul 2018-ci il, № 154)** ilə 79.2-ci maddəyə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[49] 29 may 2015-ci il tarixli **1295-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 20 iyun 2015-ci il, № 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 689)** ilə 79.5.2-ci maddəyə "**ləğv edilmiş**" sözlərindən sonra "**, habelə qaçqın statusu verilməsindən imtina edilmiş**" sözləri əlavə edilmişdir.

[50] 16 dekabr 2014-cü il tarixli **1143-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 31 dekabr 2014-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1539)** ilə 80.2-ci və 80.3-cü maddələr yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~80.2. Azərbaycan Respublikasının ərazisini tərk etməkdən boyun qaçıran əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məhkəmənin qərarına əsasən tutulur və Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılanadək qanunla müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanının qanunsuz miqrantların saxlanılması mərkəzlərinə yerləşdirilirlər.~~

~~80.3. Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması qərara alınmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılma üçün Azərbaycan Respublikasının İnzibati Xətalar və Cəzaların İcrası məcəllələrində, habelə bu Məcəllənin 79.5-ci maddəsində nəzərdə tutulmuş müddət ərzində qanunla müəyyən olunmuş qaydada könüllü~~

~~olaraq müvafiq icra hakimiyyəti orqanının qanunsuz miqrantların saxlanılması mərkəzlərinə yerləşdirilə bilərlər.~~

[51] 17 oktyabr 2014-cü il tarixli **1071-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 23 noyabr 2014-cü il, № 256; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 11, maddə 1351)** ilə 80.6-1-ci maddə əlavə edilmişdir.

[52] 16 dekabr 2014-cü il tarixli **1143-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 31 dekabr 2014-cü il, № 288, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 12, maddə 1539)** ilə 14-cü fəsil 15-ci fəsil, 82-ci maddə isə 95-ci maddə hesab edilmişdir və yeni məzmunda 14-cü fəsil əlavə edilmişdir.

[53] 17 may 2016-cı il tarixli **244-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 iyun 2016-cı il, № 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 988)** ilə 90.8-ci maddənin ikinci cümləsində "**Şikayətin**" sözü "**Bu Məcəllənin 90.9-cu maddəsinə əsasən tənbeh tədbirinin tətbiqinin dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, şikayətin**" sözləri ilə əvəz edilmişdir.

[54] 17 may 2016-cı il tarixli **244-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 iyun 2016-cı il, № 139, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 6, maddə 988)** ilə yeni məzmunda 90.9-cu maddə əlavə edilmişdir.